www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  9 avqust 2017-ci il  Çərşənbə  № 165 (6779)  Qiymətı 60 qəpik

**Xəbər**

## Erməni generalın rüsvayçı məktubu üzə çıxdı - "Azərbaycan ordusu..."

yazısı səh.9-da

**Gündəm**

### "Uşaqların hədəfə alınması Ermənistanın dövlət siyasətidir"



Azərbaycan XİN-dən cəbhə xəttindəki son düşmən təxribatları ilə bağlı qəzəbli bəyanat

yazısı səh.3-də

### Əli Həsənovun nəvəsi məhkəmədə: "Peşmanam..."

yazısı səh.7-də

### "Sabunçu bazarı" yanğından sonra xarabalığa çevrilib - əməkdaşımızın hadisə yerindən qeydləri

yazısı səh.4-də

### Sərksiyanın 29 illik Qarabağ nağılı - belə nağılın sonu göydən "alma" yox, raketlər vəd edir...

yazısı səh.11-də

### Bakının "hamam" kimi avtobusları: problemin tezliklə həlli vəd edildi, amma...

yazısı səh.14-də

### Nazirliyin müğənnilərlə bağlı bəyanatına sənətçilərdən reaksiya gəldi

yazısı səh.13-də

### "Kaş heç prezident olmayaydım..." - siyasətdə Tramp sindromu

yazısı səh.13-də

### Ruhani yeni hökumətə qadınları buraxmadı

yazısı səh.12-də

### Əzraillə "bəhsə girən" ölüm avtoşları - Həmid Herisçinin yazısı

yazısı səh.10-da

### Dünyanı idarə edən liderlərin bir-birindən ilginc hobbiləri

yazısı səh.15-də

## İşğalçı ölkə iki qlobal gücün məngənəsində

# ABŞ-DAN ERMƏNİSTANA HƏDƏ KİMİ İSMARIŞ: "DONORUNU DƏYİŞMƏSƏN!.."

İrəvan üçün dilemma: təcavüzkar Kremlə "badalaq" gəlib Vaşinqtonu seçə bilərmi; amerikalı tanınmış politoloq: "ABŞ zaman keçdikcə Ermənistana işğalçı Rusiyanın müttəfiqi kimi baxmağa başlayacaq" - Bakı üçün nikbin gözlənti...



yazısı səh.8-də

## Akif Çovdarovun yağmaladığı mülkləri necə xilas etməli?

Tanınmış vəkil çıxış yolları barədə "Yeni Müsavat"a önəmli açıqlamalar verdi; "Prokurorluq orqanları həmin mülklərlə bağlı..."

yazısı səh.5-də



Rəhim Qazıyev

### Sərdar Cəlaloğlunun agent ittihamına Rəhim Qazıyevdən cavab: "Faktı varsa..."

yazısı səh.3-də



*Siyavuş Novruzov:*

### "Mənim səlahiyyətimə məscid, molla və qəbiristanlıq daxildir"

yazısı səh.7-də



Astan Şahverdiyev

### Cəmiyyəti aldadan qalmaqallı deputatın mandatı alına bilər

yazısı səh.4-də



## Azərbaycan prezidenti: "Biz bölgədə daimi sülh və sabitlik istəyirik"

**"Biz sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfər Türkmənistan-Azərbaycan əlaqələrinin inkişafında mühüm rol oynayacaq. Biz dostuq, qonşuyuq, əsrlər boyu xalqlarımız dostluq, mehriban qonşuluq şəraitində yaşamışlar və bu gün iki müstəqil dövlət kimi biz əməkdaşlığımızı yeni səviyyəyə qaldırmışıq".**

APA-nın məlumatına görə, bunu Azərbaycan prezidenti İlham Əliyev Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovla geniş tərkibdə keçirilən görüşdə bəyan edib.

"Biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik, siyasi, iqtisadi, nəqliyyat, energetika və digər sahələrdə çox yaxşı nəticələr var. Bu gün (dünən-red.)təkbətək görüşdə müzakirə etdiyimiz məsələlər bir daha onu göstərir ki, bizim mövqeyimizdə eyni yanaşma var. Biz istəyirik ki, Türkmənistan ilə Azərbaycan həmişə olduğu kimi öz əlaqələrini yüksək səviyyədə saxlasınlar, bu əlaqələr daha da inkişaf etsin. Biz istəyirik ki, bölgədə sabitlik, sülh daim bərqərar olsun. İstəyirik ki, xalqlarımız yaxşı yaşasın, rifah içində yaşasın. Əlbəttə ki, ikitərəfli əlaqələrimizin inkişafı xalqlarımızın maraqlarına tam cavab verir və həm beynəlxalq arenada, həm regionda, həm ikitərəfli formatda Türkmənistan və Azərbaycan nümunəvi münasibətlər göstərir. Sizin səfəriniz bunun növbəti təsdiqidir. Əminliyimi ifadə etmək istəyirəm ki, səfər çox uğurlu olacaq və əlaqələrimiz daha da yüksək səviyyəyə qalxacaq", - deyə o vurğulayıb.

Qeyd edək ki, səfər çərçivəsində bir sıra sənədlər imzalanıb, prezidentlər bəyanatla çıxış ediblər.



## Sentyabrda 4 gün iş olmayacaq

**Qurban bayramı ilə əlaqədar qeyri-iş günləri məlum olub. APA-nın məlumatına görə, Nazirlər Kabinetinin qərarına əsasən, bu il Qurban bayramı 1, 2 sentyabr tarixlərində qeyd olunacaq.**

Qurban bayramında 2 sentyabr şənbə gününə təsadüf etdiyi üçün Əmək Məcəlləsinə əsasən, iş və istirahət günlərinin yerləri dəyişdiriləcək, 4 sentyabr qeyri-iş günü olacaq. Beləliklə, 3 sentyabr da bazar gününə təsadüfi etdiyi üçün Qurban bayramında 4 gün ardıcıl qeyri-iş günü olacaq.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01; 434 01 33**

# Rusiyada məhbus azərbaycanlılar üsyana qalxdılar

**Bu günlərdə Rusiyanın Xakasiya Respublikasında məhbəs həyatı yaşayan Azərbaycan vətəndaşları yenidən məhkəmə qarşısına çıxarılacaqlar. Onlar Tacikistan və Qırğızıstan vətəndaşları ilə birlikdə həbsxanada kütləvi qarışıqlıq və üsyan qaldırmaqda ittiham edilirlər.**

Virtualaz.org Rusiya Federasiyası İstintaq Komitəsinin Xakasiya Respublikası üzrə İstintaq İdarəsinin mətbuat xidmətinə istinadən xəbər verir ki, 2016-cı ilin yayında 35 saylı islah-əmək düşərgəsində cəzalarını çəkən Azərbaycan, Tacikistan və Qırğızıstan vətəndaşları kütləvi qarışıqlıq törədiblər. Rəsmi məlumata əsasən, onlar düşərgədəki rejimin yüngülləşdirilməsini tələb ediblər.



2016-cı ilin iyulunda 242 məhbus həbsxananın yataq hissəsində barrikadalar quraraq üsyan qaldırıblar. "Onlar həbsxananın qoyduğu rejim üzrə deyil, istədikləri vaxt namaz qılmaq, ibadət etmək, tanınma nişanları olmadan gəzmək, yuxarı düyməni bağlamamaq, arzuladıqları yerdə siqaret çəkmək kimi tələblər irəli sürüblər. Üsyan vaxtı həbsxanaya 1 milyon 700 min rubl zərər vurulduğu bildirilir.

Ötən ilin iyul ayının 25-də fakt üzrə cinayət işi qaldırılıb. Üsyan təşkilatçılarından birinin istintaqla işbirliyinə gedərək, 2 il müddətinə azadlıqdan məhrum edilmə cəzası aldığı bildirilir. Onun hansı ölkənin vətəndaşı olduğu barədə məlumat verilmir.





## DİN müsabiqə elan edib

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin tabeçiliyində olan orqanlarda vakant kiçik rəis heyəti vəzifələrində xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.**

Respublikanın Quba və Mingəçevir "ASAN xidmət" mərkəzlərində ümumilikdə 38 (Quba "ASAN xidmət" mərkəzi 19, Mingəçevir "ASAN xidmət" mərkəzi 19) vakant yer tutmaq məqsədi ilə keçirilən müsabiqədə orta, orta-ixtisas və ali təhsil müəssisələrini bitirmiş, yaşı 20-dən 25-dək, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşayış yeri üzrə Quba rayonunda və Mingəçevir şəhərində (ətraf rayonlarda) daimi qeydiyyatda olan qadın vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanacaq. Müsabiqədə ali təhsillilərə, kompüterlə işləmək qabiliyyətinə malik olan və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Xidmətə qəbul olunmaq istəyən şəxslər 2017-ci ilin avqust ayının 7-dən sentyabr ayının 07-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri R.Behbudov küçəsi 130-da yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Şəxsiyyət vəsiqəsi
- Təhsil haqqında sənədin əsli
- Əmək kitabçası (olanlar üçün)

Əlavə məlumat üçün əlaqə telefonu: (012) 590-64-41

❑ **Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti**



## Qızmar hava davam edəcək - 43 dərəcə

**Azərbaycanda bu günə olan hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, avqustun 9-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli olacağı gözlənilir. Zəif cənub-şərq küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 25-28° isti, gündüz 37-42° isti, Bakıda gecə 26-28° isti, gündüz 39-41° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 758 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80 %, gündüz 35-45 % olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 28-29°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 29-30°, Türkan, Hövsan, Sahil, Şıxda 30-31° isti təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti yağmursuz olacaq. Qərb küləyi axşam ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 22-27°, gündüz 38-43° isti, dağlarda gecə 16-21°, gündüz 29-34° isti olacağı gözlənilir.



## Bakıda bir neçə çimərlik cərimələndi

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən Xəzər dənizinin Bakıda sahilboyu zonasında reyd keçirilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, reyd zamanı Xəzər dənizinin sahilboyu ərazisində fəaliyyət göstərən "Aquapark", "121", "Amay" istirahət mərkəzlərində, "Delfin" çimərliyində, "Fərdi" iaşə obyektində, "Cənub" kafesində bərk məişət tullantılarının qanunvericiliyə uyğun qaydada idarə olunmaması, tullantıların qalaqlanması və yandırılması, "Balıq evi" restoranında isə formalaşan tullantı sularının təmizlənmədən birbaşa dənizə axıdılması faktları aşkar edilib.

Qanun pozuntuları ilə bağlı obyekt sahibləri barəsində protokollar tərtib olunub. İnzibati xəta törətdiklərinə görə təqsirkar şəxslər ümumilikdə 6150 manat məbləğində cərimə edilib və çatışmazlıqların aradan qaldırılması üçün onlara icrası məcburi olan müddətli "məcburi göstəriş"lər verilib.

Reydlər davam etdirilir.

## Bakıda oğurlandığı deyilən qız qoşulub qaçıbmış

**Bir neçə gün əvvəl Binəqədi Rayon Polis Bölməsinə qəsəbə sakini, 1978-ci il təvəllüdlü Gülxanım Yusifova qızı və nəvəsinin qaçırılması ilə bağlı müraciət edib. Ana bildirib ki, avqustun 5-də, saat 23:00 radələrində Eldar adlı şəxs onun qızı, 1998-ci il təvəllüdlü Aytəni və 2015-ci il təvəllüdlü nəvəsi Yusifi oğurlayıb.**

Hadisədə adı hallanan Eldar Əzizulla oğlu Bağışov bildirib ki, məsələ heç də qeyd olunduğu kimi deyil. "Burada söhbət qaçırılmaqdan gedə bilməz. Biz bir-birimizi sevdik və bir yerdə yaşamağa qərar verdik. Planlaşdırdığımız yerdə görüşüb gəlmişik evə. Mən onları evlərindən qaçırmamışam. Polis idarəsində izahatımda da belə yazmışam. Aysel hazırlıqlı gəlmişdi. Evlərindən həm özünün, həm də uşağına lazım olan əşyaları toplayıb, gəlib yolun kənarına, oradan da birlikdə görüşüb getmişik".

Qaçırıldığı deyilən 1998-ci il təvəllüdlü Yusifova Aysel Fuad qızı da hadisəni təsdiqləyib. "Paltarımı yığıb gəlmişəm görüşə. Oradan da getmişik".

**Ayselin dediyinə görə, o, əvvəlki həyat yoldaşından rəsmi olaraq boşanıb. Eldarla da yaxın günlərdə nikaha girməyi planlaşdırır (oxu.az).**

YENİ MÜSAVAT
N 165 (6779) 9 avqust 2017

# Sərdar Cəlaloğlunun agent ittihamına Rəhim Qazıyevdən cavab gəldi

## "Əlində sübut varsa... ortaya qoysun, diz çöküb ondan üzr istəyərəm"

**ADP sədri Sərdar Cəlaloğlunun "Yeni Müsavat"ın ötən sayına verdiyi geniş müsahibədə səsləndirdiyi bəzi fikirlər geniş müzakirələrə səbəb olmaqla yanaşı, qalmaqal yaradıb. Partiya sədri son zamanlar ruspərəst qüvvələrin Azərbaycanda fəallaşması ilə bağlı suala cavab verərkən, sabiq baş nazir Surət Hüseynovun, eks-prezident Ayaz Mütəllibovun və keçmiş müdafiə naziri Rəhim Qazıyevin adlarını çəkib.**

S.Cəlaloğlu bu və digər şəxslər vasitəsilə Kremlin rəsmi Bakıya təzyiqlər edəcəyinin anonslarını verib. Adı çəkilən şəxslərdən R.Qazıyev qəzetimizə müraciət edərək, cavab haqqı istəyib. Biz də bu haqqı ona tanıdaraq, keçmiş müdafiə nazirinin dediklərini təqdim edirik:

"Müsahibəni oxudum və çox təəccübləndim. Allahdan, Qurandan insanlara moizə oxuyan, düzgün olmağı təbliğ edən bir siyasətçi, partiya sədri başqasının ünvanına əsassız şayiələri həqiqət kimi millətə sırımaz. Ayaz Mütəllibov, Surət Hüseynov və mənim adımı çəkərək, bizi rusperəst qüvvələr kimi təqdim edir. Surət Hüseynovun da, Ayaz Mütəllibovun da dili-ağzı var. Onlar özləri cavab verərlər. Özünə, sözünə sıxışmayan Sərdar Cəlaloğlu ünvanıma hansı əsasla rusperəst qüvvə deyir? Əgər əsası varsa, ortaya qoysun. İnanclı insan başqasına əlində olmayan faktı həqiqət kimi deməz.

Deyir ki, rusperəst qüvvələr Azərbaycanda fəallaşır. İndiyə qədər bilmirdim ki, nəyisə danışmaqdan ötrü özündən çox razı olan, dünyanın bütün elmlərindən xəbərdar olan Sərdar Cəlaloğludan icazə almalı idim. Bir insan kimi fikirlərimi yazmışam, yazıram və yazacağam da. Mən partiya sədri deyiləm, sadəcə, bir vətəndaş kimi düşüncələrimi yazmışam və müraciət etmişəm. Digər tərəfdən, mənə də Sərdar Cəlaloğlu barədə gəzən şayiələri danışıblar, həqiqət kimi çatdırıblar. İndiyə qədər onun heç birini deməmişəm. Bu gün də onları demək üçün əlimdə heç bir fakt yoxdur. O məndən ötrü o qədər də vacib persona da deyil.


Rəhim Qazıyev


Sərdar Cəlaloğlu

Amma hər halda Sərdar Cəlaloğlunun müqəddəs Qurani Kərimin surələrinin birində olan mənfi obrazlardan biri olduğu barədə böyük şayiələr gəzir. Hətta iqtidarın əlində onun barəsində video-süjet də var. Yaxşı olar ki, o bu barədə danışsın yaxud fikirləşsin. Mən müdafiə naziri olmuşam. Vəzifədə olduğum dönəmdə - yəqin indiki gənclər bilmirlər - Azərbaycanda yerləşən keçmiş sovet ordusunun hərbi hissələrinin hamısı birbaşa Rusiyaya tabe idi. Müdafiə naziri kimi Rusiyanın müdafiə naziri ilə əlaqə yaratmışam. Keçmiş sovet ordusunun hərbi hissələrinin ölkəmizdən çıxarılması üçün onlarla münasibət yaradıb, bu işə də nail olmuşam. Bundan sonra kim nə danışır danışsın, amma həqiqətləri desin. Lakin bunları Rusiyanın agenti, adamı kimi dilə gətirmək ibadət əhli olan bir kişiyə yaraşmaz. Faktı varsa, ortaya qoysun, diz çöküb ondan üzr istəyərəm.

Sən millətin prezidenti olmaq istəyirsən. Vətəndaşın haqqında konkret faktın varsa, ortaya çıxar. Yoxsa vətəndaşı qaralayıb, millətin qarşısında şər-böhtanlara məruz qoyma. Böhtan demək özünə hörmət edən ləyaqətli, adi insana yaraşmır, nəinki partiya sədrinə. Mənim Rusiya, yaxud hansısa ölkənin agenti olmağım barədə əlində nəsə varsa, mən millət qarşısında ondan üzr istəməyə hazıram. Özünə hörmət edən insan əmin olmadığı bir faktı başqasının adına həqiqət kimi sırımaz. Kimin haqqında mən nəsə deyirəmsə, ortaya nəyisə qoymağı da bacarmalıyam.

Mənim bir vətənim var, bir də möhtərəm xalqım. Özüm də bu xalqın içərisində yaşayıram, övladlarım da. Heç yerdə işləməyə-işləməyə, o övladlarım nə xarici ölkədə təhsil alıblar, nə də orada yaşamırlar. Hər halda Sərdar Cəlaloğlu bilməlidir ki, mən hara, nəyi deyirəm".

❑ **Cavanşir ABBASLI**

# "Uşaqların hədəfə alınması Ermənistanın dövlət siyasətidir"

## XİN: "Azərbaycanın atmalı olacağı addımların məsuliyyəti tam şəkildə Ermənistanın üzərinə düşür"

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədindəki vəziyyəti şərh edib. Musavat.com-un məlumatına görə, o deyib:**




"Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca yaşayış məntəqələrini atəşə tutması və mülki insanları qəsdən hədəfə alması kimi əməllərinin nəticəsində 7 avqustda Tovuz rayonunun Qaralar kəndinin sakini 13 yaşlı Yusifov Ramin xəsarətlər alıb.

4 iyul tarixində isə Ermənistan silahlı qüvvələrinin Füzuli rayonunun Alxanlı kəndini ağır silahlardan hədəfli şəkildə və qəsdən atəşə tutması nəticəsində 51 yaşlı Allahverdiyeva Sahibə və onun 2 yaşlı nəvəsi Quliyeva Zəhra qətlə yetirildi, 52 yaşlı Quliyeva Sərvinaz isə ağır yaralandı.

Ermənistanın bu vəhşiliyinin, xüsusilə azyaşlı uşağı və qadınları hədəfə almasının beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə pislənilməsinə baxmayaraq, Ermənistan bu çirkin əməllərindən nəticə çıxarmayaraq 7 avqustda 13 yaşı Yusifov Raminin yaralanması ilə nəticələnən növbəti barbar əməli törətdi.

Mülki insanların, o cümlədən uşaqların hədəfə alınması və qətlə yetirilməsi məqsədi daşıyan qəddar əməllər Ermənistanın siyasi-hərbi rəhbərliyinin yürütdüyü dövlət terrorizmi siyasətidir. 25 ildən artıq dövr ərzində Ermənistanın Azərbaycana qarşı apardığı müharibə nəticəsində Ermənistan tərəfindən çoxsaylı hərbi cinayətlər, soyqırım və bəşəriyyət əleyhinə cinayət əməlləri törədilib. Xocalı soyqırımı bunun ən dəhşətli və qanlı nümunələrindən biridir.

2016-cı ilin aprelində Ermənistan rəhbərliyinin törətdiyi hərbi avantüra nəticəsində cəbhə xətti boyunca 34 mülki şəxs yaralandı, arasında uşaq olmaqla 6 nəfər həlak oldu. Mülki Azərbaycan əhalisinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan silahlı qüvvələri əks-həmlə tədbirləri həyata keçirdi, atəş məntəqələrini susdurdu və işğal altında olan bir sıra strateji məntəqələri işğaldan azad etdi.

Ermənistan Respublikasının yenilənmiş hərbi doktrinasında cəbhə xətti boyunca asimmetrik hücumların həyata keçirilməsi və bu xüsusda mülki insanların və obyektlərin hədəfə alınması artıq açıq şəkildə təsbit olunub. Ermənistana münasibətdə hökm sürən cəzasızlığın nəticəsidir ki, Ermənistanın hərbi rəhbərliyi mülki insanlar və mülki obyektlərin hədəfə alınmasından çəkinmədiklərini etiraf edən bəyanatlarla çıxış edirlər.

Ermənistanın Azərbaycan mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cı il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin Uşaqların hüquqlarına və İnsan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Müasir beynəlxalq hüquqa əsasən bu əməllərə görə bir dövlət olaraq Ermənistan Respublikası ilə bərabər, Ermənistanın siyasi-hərbi rəhbərliyində olan şəxslər də bilavasitə məsuliyyət daşıyırlar.

Ermənistanın Azərbaycan ərazilərinin işğalını davam etdirməsi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu danışıqlar prosesinə ciddi maneədir, hərbi risklərin və gərginliyin yaranmasının əsas səbəbidir. İşğala əsaslanan qəbuledilməz və qeyri-davamlı status-kvonun dəyişdirilməsi üçün ilk növbədə Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması təmin olunmalıdır.

26 iyul tarixində Xarici İşlər və Müdafiə Nazirlikləri Ermənistanın təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca sistematik şəkildə atəşkəsi pozması, təxribatlar törətməsi və qəsdən yaşayış məntəqələrini və mülki insanları hədəfə alması barədə Ermənistana xəbərdarlıq məzmunlu dəqiq birgə bəyanatla çıxış etdilər.

Bir daha bəyan edirik ki, Ermənistanın törətdiyi təxribat və hücumların qarşısını almaq üçün Azərbaycanın atmalı olacağı addımların məsuliyyəti tam şəkildə Ermənistanın üzərinə düşür".



# Tehran görüşündən sonra Türkiyə yeni əməliyyatlara başlaya bilər

## Analitik Engiz Özer: "Türkiyə ilə anlaşmanın əldə olunmasına gözləyirəm"

**Avqustun 8 və 9-da İranın paytaxtı Tehran şəhərində Türkiyə, Rusiya və İran XİN rəhbərlərinin görüşü planlaşdırılır. Rusiyanın Tehrandakı səfirliyinin binasında keçirilən konfransda hər 3 ölkənin hərbi ekspertləri iştirak edir. Mövzu isə Suriya münaqişəsidir.**

Qeyd edək ki, bu formatda toplantı daha əvvəl Ankarada, Astanada keçirilsə də budəfəki toplantı ABŞ Konqresinin İran, Rusiya və Şimali Koreyaya qarşı sanksiya qanunu qəbul etməsindən sonra, eləcə də Suriyada proseslərin sürətlənməsi ilə eyni vaxta təsadüf edir.

Yeri gəlmişkən, artıq Rusiya mətbuatı sanksiyaların Rusiya və İran arasında hərbi əməkdaşlığın gücləndirəcəyini yazır. Bunun fonunda isə Rusiya baş nazirinin müavini Dmitriy Roqozin Therana səfər edərək İran müdafiə naziri Hüseyn Dehqanla görüşdü və əməkdaşlıq məsələlərini, ən önəmlisi isə Roqozinin birbaşa cavabdeh olduğu silah və texnika alınması mövzularını müzakirə etdilər. Roqozinin ofisindən bir mənbə isə mətbuata İran və Rusiyanın ABŞ sanksiyasından sonra iki ölkənin hərbi və texniki sahədə əməkdaşlığı gücləndirmək, eləcə də yeni silah anlaşmaları imzalamağa qərar verdiklərini deyib. Belə bir təqvimdə Suriyada son bir ildə fəaliyyətlərini koordiyasiya edən və artıq hardasa müttəfiqlik münasibətlərinə malik olan Rusiya, Türkiyə və İran hərbi ekspertləri bir araya gəlir. Ehtimal olunur ki, Tehran toplantısı atəşkəs bölgələri, həmçinin terror qruplaşmalarının sıradan çıxarılması ilə bağlı yeni əməliyyatın planının razılaşdırılması üçün keçirilir. Maraqlıdır ki, Tehran toplantısından bir neçə gün əvvəl mediada Türkiyənin Suriya müxalifəti koalisiyasına maliyyə yardımını dayandırdığı haqda xəbərlər yayılıb.

**Ankara-Moskva Analiz Mərkəzinin analitiki Engin Özer** deyir ki, Tehran toplantısında Türkiyənin əsas tələbi Afrin əməliyyatı üçün dəstək olacaq. Bununla bağlı Rusiya və İrandan "məhdud və qısa müddətli" əməliyyat üçün razılıq alacaq: "Türkiyənin azad etdiyi əl-Bab və ordu göndərməyə hazırlaşdığı Afrin bölgələrində nə qədər qalacağı, daha sonra azad etdiyi bölgələrə hansı qrupların yerləşdirəcəyi hələlik müəmmalıdır. Əməliyyat uğurlu olarsa, daha sonra o bölgənin Suriya ordu qüvvələrinə verilməsi mümkün deyil. Ancaq yaxın müddətdə Türkiyə ordusunun bölgədə qalması təhlükə yarada bilər".

**Bu səbəbdən də E.Özere görə, Rusiya İdlibdəki müxaliflərə yardımı dayandırması qarşılığında Türkiyənin Afrin əməliyyatına icazə verə bilər. Bu istiqamətdə hələlik məlum olmayan daha bir məsələ isə E.Özerin fikrincə, Afrin əməliyyatından sonra Türkiyə ordusunun İdlibə irəliləməsi və ya bu iki əməliyyatın eyni zamanda baş verməsidir:** "Bu qədər geniş bir ərazinin Türkiyənin təsir dairəsinə keçməsinə Rusiya və İranın razı olacağını düşünmürəm. Nəticədə Tehranın İdlibdəki müxaliflərin köçürülməsi planı və Afrin mövzusunda Türkiyə ilə anlaşmanın əldə olunmasına gözləyirəm".

**Rusların Türkiyəni YPG ilə savaşmağa həvəsləndirdiyini deyən ekspertin fikrincə, sonrakı etapda Türkiyəni "ən-Nusra" ilə savaşa cəlb etməyə çalışırlar. Bütün bunlar isə E.Özere görə Türkiyə üçün riskdir. Türkiyənin Hələb hökumətin əlinə keçdikdən sonra müxaliflərə yardımları dayandırdığını xatırladan E.Özer deyir ki, əsas məsələ Ankaranın hansı qüvvələrə yardımı dayandırmasıdır:** "Əgər qeyd olunan qrup İdlib yaxınlığında yerləşən Azad Suriya Ordusudursa, o zaman Ankara Rusiya ilə müəyyən bir anlaşma çərçivəsində əməliyyat hazırlayacaq deməkdir. Bu mənada indi Türkiyə Tehranda İdlib əməliyyatı mövzusunda Rusiya və İran, yeni həm də Bəşər Əsəd rejimindən "yaşıl işıq" gözləyir. İdlib məsələsi Raqqadan daha qarışıqdır. Çünki İdlibdə həm Əsəd rejimi, həm də kürdlərin əməliyyat başlatmaları mümkündür. Amerikalılar üçün də İdlib xüsusi əhəmiyyət kəsb edir. Çünki İdlib haqqında danışılan "kürd koridoru"nun mühüm nöqtəsidir. Tramp hakimiyyəti gələcəkdə Türkiyənin qurduğu əl-Bab xəttinin yarıla biləcəyini düşünür. Ancaq İdlib Türkiyənin əlinə keçərsə, bütün kürd koridoru layihəsi batacaq. Lakin Amerika Ankaranın İdlib əməliyyatına mane olmayacaq. Digər tərəfdən türklərin yorucu savaşa girməsini istəyə bilərlər. Bu mənada Tehranda əsas gündəm Rusiyanın nəyin qarşılığında bu əməliyyata icazə verməsi olacaq".

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 165 (6779) 9 avqust 2017

# Akif Çovdarovun yağmaladığı mülkləri necə xilas etməli?

## Qurban Məmmədov: "Prokurorluq orqanları həmin mülklərlə bağlı mülki məhkəməyə müraciət etməlidir"

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə məhkəmə prosesi davam edir. Hakim Həbin Həsənovun sədrliyi ilə keçirilən son qapalı proseslərdən birində general A.Çovdarov üzərinə həbs qoyulmuş əmlakları haqda ifadə verib. Həmin əmlakların uzun bir siyahısı əlimizdə var və həmin siyahıda aşağıdakı əmlaklar qeyd olunub:**


Akif Çovdarov

- Nizami rayonu Naxçıvanski küçəsi 50 ünvanında yerləşən ticarət və xidmət sahəsindən (meyvə-tərəvəz bazarı) ibarət əmlak kompleksinin (dəyəri 8.100.000 manat), "Babək-94" müstəqil kiçik müəssisəsinin Bakı şəhəri Xətai rayonu M.Hadi və İ. Zülfüqarov küçələrinin arasında 2942 a məhəllədə yerləşən binasında (hazırda Xudu Məmmədov küçəsi 34) 89,8 kvadrat metr ölçüdə 100 nömrəli mənzilin (dəyəri 115.500 manat), Bakı şəhəri Binəqədi rayonu Biləcəri qəsəbəsində İbadət Çovdarovanın adına rəsmiləşmiş 560 kvadrat metr torpaq sahəsinin (dəyəri 95.000 manat), Bakı şəhəri Binəqədi rayonu Biləcəri qəsəbəsində Rövşən Qasımovun adına rəsmiləşmiş 0,06 hektar torpaq sahəsinin (dəyəri 300.000 manat), Bakı şəhəri Yasamal rayonu M. Xiyabani küçəsi 5-də yerləşən "Yeni Yasamal" mənzil-tikinti kooperativinin inşa etdiyi binanın 1-ci mərtəbəsindəki 250 kvadrat metr qeyri-yaşayış sahəsinin (dəyəri 231.500 manat), Bakı şəhəri Xətai rayonu M. Hadi küçəsi 2337-ci məhəllə, "Yüksəliş-C" MTK tərəfindən inşa edilmiş binanın 147,4 kvadrat metr sahəyə malik 179 saylı mənzilinin (dəyəri 125.000 manat), Akif Çovdarova məxsus, Bakı şəhəri Səbail rayonu Badamdar qəsəbəsi 1-ci yaşayış massivi 463 ünvanda yerləşən 0,0996 ha torpaq sahəsi və onun üzərindəki 531,60 kvadrat metr fərdi yaşayış evinin (dəyəri 1.655.000 manat), Bakı şəhəri Səbail rayonu Badamdar qəsəbəsi 1-ci yaşayış massivi 465 ünvanda yerləşən 0,07 ha torpaq sahəsi və onun üzərindəki 275,6 kvadrat metr fərdi yaşayış evinin (dəyəri 1.109.000 manat), Bakı şəhəri Səbail rayonu Badamdar qəsəbəsi 1-ci yaşayış massivi 465a ünvanda yerləşən 0,0665 hektar torpaq sahəsi və 275,6 kvadrat metr fərdi yaşayış evinin (dəyəri 1.145.000 manat), Bakı şəhəri Nəsimi rayonu Bülbül prospekti ev 65, mənzil 38-in (dəyəri 483.000 manat), Abşeron rayonunun Novxanı kəndində yerləşən 0,1073 ha torpaq sahəsinin (dəyəri 86.000 manat), Abşeron rayonunun Novxanı kəndində yerləşən 0,0886 ha torpaq sahəsinin (dəyəri 71.000 manat), Abşeron rayonu Novxanı kəndi Novxanı bağlar massivində yerləşən 1276 a nömrəli bağ evindəki 0,18 ha torpaq sahəsi və 222,31 kvadrat metr fərdi yaşayış evinin (dəyəri 808.000 manat), Abşeron rayonu Novxanı kəndindəki 0,11 ha torpaq sahəsi və onun üzərindəki 241,9 kvadrat metr bağ evinin (dəyəri 700.000 manat), Abşeron rayonu Saray kəndində yerləşən 0,15 ha torpaq sahəsinin (dəyəri 60.000 manat), Abşeron rayonu Saray kəndində yerləşən 0,6754 ha torpaq sahəsinin (dəyəri 203.000 manat), Abşeron rayonu Saray kəndində yerləşən 0,17 ha torpaq sahəsinin (dəyəri 59.500 manat), Xızı rayonunun Qızılqazma kəndində yerləşən 2 hektar torpaq sahəsinin (dəyəri 400.000 manat), Qəbələ rayonu Nohurqışlaq kəndində yerləşən 2 ədəd 0,075 hektar torpaq sahələrinin (hər birinin dəyəri 15.000 manat), Şamaxı rayonunun Nağaraxana kəndində yerləşən 0,13739 hektar torpaq sahəsi və onun üzərində yerləşən 250,1 kv.m, 264,6 kv.m, 250,1 kv.m. sahələrində 3 ədəd əsas tikili, 69,4 kv.m, 117,3 kv.m. sahələrində 2 ədəd köməkçi tikilinin (dəyəri 750.000 manat), Abşeron rayonunun Masazır kəndində 2,675 ha, 3,0 ha, 0,0275 ha, 0,3238 ha, 0,0828 ha, 3,12 ha, 0,0821 ha torpaq sahələrinin üzərində yerləşən tikililərin (dəyəri 4.310.000 manat), həmin ünvanda 0,2 hektar torpaq sahəsinin üzərində olan tikilinin (dəyəri 2.470.000 manat), Kürdəmir rayonunun Yeni Şıxımlı kəndində yerləşən 2,5 hektar torpaq sahəsinin (dəyəri 1.800 manat), Kürdəmir rayonunun Qurdbayram kəndində yerləşən 100 hektar torpaq sahəsinin (dəyəri 60.000 manat), Kürdəmir rayonunun Mollakənd kəndində yerləşən 69 ha torpaq sahəsində olan göllər, 106 kv.m, 24,8 kv.m, 318,3 kv.m, 28,8 kv.m, 16,7 kv.m, 96 kv.m, 28,8 kv.m. ümumi sahədən ibarət tikililər, 40,5 kv.m. tikintialtı sahəli talvar və 218,6 kv.m. tikintialtı sahəli hovuzun (dəyəri 646.000 manat), Kürdəmir şəhəri lərşəli yeri» adlanan ərazidə yerləşən 100 hektar torpaq sahəsinin üzərində yerləşən 93,1 kv.metr tikili, 24 min nar kolunun (dəyəri 208.600 manat), Bakı şəhəri Nəsimi rayonu Seyidzadə 16 b küçəsi ilə Cavadxan küçəsinin kəsişməsində yerləşən 23 kvadrat metr, 24,6 kvadrat metr, 18,60 kvadrat metr, 13,8 kvadrat metr, 16,0 kvadrat metrdən ibarət qarajların (dəyəri 96.000 manat), Bakı şəhəri Binəqədi rayonu 7-ci mikrorayon, Xarici dairəvi küçəsi 10 saylı yaşayış binasının yanında yerləşən 4941 kvadrat metr sahəyə malik 6 mərtəbəli, zirzəmili və mansardlı binanın (dəyəri 3.178.000 manat), Bakı şəhəri Nəsimi rayonu Cavadxan küçəsi 62 nömrəli binanın yaxınlığında yerləşən zirzəmili, mansardlı 7 mərtəbəli qeyri-yaşayış binasının (dəyəri 4.500.000 manat), Bakı şəhəri Adil Məmmədov küçəsi 143, mənzil 142-nin (dəyəri 145.000 manat), Bakı şəhəri Mir Cəlal küçəsi 143, mənzil 145-in (dəyəri 115.000 manat) üzərinə həbslər qoyulub.

A.Çovdarovun üzərinə həbs qoyulmuş əmlaklarının ümumi dəyəri 32 milyon 256 min 900 manatdır.

O, məhkəmədəki çıxışında qeyd olunan əmlakların yalnız ikisinin - bir evin və bir bağ evinin ona məxsus olduğunu deyib. Bildirib ki, qalan əmlakların 99 faizi ona məxsus deyil, qohumlarınındır.

Generalın bu ifadəsi iş üzrə zərərçəkənlərin ciddi narazılığı ilə qarşılanıb. Zərərçəkənlər təlaş içində onlara dəymiş ziyanın ödənməyəcəyini ehtimal edirlər.


Qurban Məmmədov

**Tanınmış vəkil Qurban Məmmədov** deyir ki, zərərçəkənlərin narahatlığına əsas yoxdur:

"Bütün rüşvətxorlar, korrupsionerlər və haram yeməyə vərdiş edən adamlar öz adlarına əmlak saxlamırlar. Əmlakları sürücülərinin, qohumlarının, yaxın qonşularının adlarına rəsmiləşdirirlər. Buna malqaçırma deyirlər. Bunu ona görə edirlər ki, gələcəkdə həbs olunsalar oğurluqla, quldurluqla, haramçılıqla əldə etdikləri mal-mülk əllərindən çıxmasın. Amma belə halların qarşısını almaq üçün qanunlar var. Prokurorluq orqanları həmin mülklərlə bağlı mülki məhkəməyə müraciət etməlidir.

Qohumların, başqalarının adına olan bütün alqı-satqı müqavilələri Mülki Məcəllənin 340.2-ci maddəsinə əsasən etibarsız hesab olunması haqda qərar çıxarılmasına nail olunmalıdır. Yəni həmin əqdlər yalançı olduğuna görə məhkəmə qaydasında etibarsız sayılmalıdır. Həmin qərarın əsasında çıxarışlar (kupça) ləğv olunmalıdır. Bundan sonra həmin əmlaklar Daşınmaz Əmlakının Dövlət Reyestr Xidmətində Akif Çovdarovun adına rəsmiləşdirilməlidir. Sonradan isə həmin əmlaklar satışa çıxarılıb satılmalı və zərərçəkənlərə vurulan ziyan ödənməlidir. Bunu məhkəmədə sübut etmək çox asandır. Şəxsən mənə etibarnamə verilsə məhkəmədə həmin əmlakların əslində kimə məxsus olduğunu sübut edə bilərəm".

Q.Məmmədov deyir ki, Azərbaycanda korrupsioner və rüşvətxor məmurların 99.9 faizi sənəd üzərində kasıb, heç bir əmlaka sahib olmayan şəxslərdir. Faktiki isə korrupsioner və rüşvətxor məmurların böyük əksəriyyətinin bir neçə 10 milyonla ölçülən əmlakları var: "Akif Çovdarov onların arasında toya getməlidir. O, orta səviyyəli bir məmur olub. Əgər onun 32 milyon manatlı əmlakı müəyyən olunursa, görün ondan yuxarıda olanların nələri var. Üstəlik bu hələ onun Azərbaycanda tapılaraq siyahıya alınan əmlaklarıdır. Bunların orda-burda banklarda, xaricdəki hesablarda nələri olmasını təsəvvür edin. Bu gün millət əziyyət çəkir, bunlar isə ondan oğurlanan, uşağının boğazından, özünün sağlamlığından pul kəsib xaricə ötürülər. Sahibkarların talanması hesabına qazanılan pulları talançılardan alıb sahibkarlara qaytarmaq lazımdır. Hər bir korrupsioner tutulmalı, həbs edilməli, taladığı pullar əlindən alınıb sahibinə, dövlətə qaytarılmalıdır".

Q.Məmmədov deyir ki, korrupsionerlərlə mübarizənin effektivliyi üçün qərarlar işlək deyil: "Akif Çovdarov, ondan əvvəl Hacı Məmmədovla bağlı məhkəmələr qanunçuluğa zidd olaraq aparılıb. Bu dövlətçilik baxımından dəhşətli bir məsələdir. Qanun qarşısında hər kəs bərabər olmalıdır. Azərbaycanda isə belə deyil. Vətəndaş deyir ki, məni əmlaklarımı əlimdən almaq üçün həbs ediblər. Məhkəmələr isə həmin vətəndaşların qazandıqları pulların mənbəyini araşdırır, təqsirləndirilənlərin uydurduqları ssenariləri həqiqət kimi sırımağa çalışırlar. Akif Çovdarovun 32 milyonluq əmlakını qeydə alıb üzərinə həbs qoyublar. Bu adam iş adamlarını qanunsuz həbs etməklə, döyüb işgəncə verməklə əmlaklarının əllərindən alınmasında təqsirləndirilir. Döyülüb-söyülənlər özlərini zərərçəkən kimi tanıtmaq üçün müraciət edirlər, amma onları get-gələ salır, zərərçəkən kimi tanısalar belə haqlarını verməmək üçün min bir oyundan çıxırlar. Azərbaycanda 500 manatlıq dələduzluq edən 12 il iş alıb həbsə gedir. 1 milyon dələduzluq edən isə azadlıqda sərbəst gəzir. Belə hallar vətəndaşlarda dövlətə inamsızlıq, gələcəyə ümidsizlik yaradır. Cənab prezidentin son qərarlarından biri də budur ki, iqtisadi cinayətlərdə zərər ödənirsə, zərəri vuran - yəni təqsirləndirilən cəzadan azad olunur. "MTN işi" ilə əlaqəli həbs olunan rabitə işçisi Beytulla Hüseynov və digərləri vurduğu zərəri ödədilər. Amma məhkəmə onların hər birinə cəza təyin etdi, 10-12 il həbsə məhkum olundular. Sabah onlar kimi zərvuranlar tutulacaqları təqdirdə zərəri ödəyərlərmi? Əlbəttə ki, ödəməyəcəklər. Akif Çovdarov da görür ki, əmlaklarını versə, vurduğu ziyanı ödəsə belə azad olunmayacaq. Buna görə də deyir ki, əmlaklar mənim deyil".

**Tanınmış vəkil deyir ki, iş üzrə zərərçəkənləri sona qədər mübarizə aparmağa səslədi**: "Azərbaycan dövləti məhkəmə sisteminin özünü bazar adamı kimi aparmasına son qoymalıdır. Məhkəmələr bazar olmaqdan nəhayət ki, azad edilməlidirlər. Təsəvvür edin ki, hakim zərərçəkənə deyir ki, sən mənə haqq ver, ədalətini apar. Belə məhkəmə ola bilməz. Məhkəmələrdəki qanunsuzluqlara son qoyulmalır, rüşvət və korrupsiya aradan tamamilə qaldırılmaldır. Zərərçəkənlərə isə sözüm budur ki, heç kimə haqq vermədən haqlarını tələb etsinlər, ölkə daxilində hüquqlarının bərpa olunmayacağı təqdirdə Avropa Məhkəməsinə üz tutsunlar".

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 165 (6779) 9 avqust 2017



# Qonşuluqdakı “arxalı köpək”

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Erməni mətbuatında bir yazı gördüm, Türkiyə ərazilərinə iddialardan bəhs olunurdu. Xəstə qonşularımız Türkiyənin Muş, Van, Ani şəhərlərini “Qərbi Ermənistan” kimi təqdim edirlər. Bu bədbəxtlər unudurlar ki, əslində onların mövcud olduqları coğrafi məkan Qərbi Azərbaycandır, tarixi türk torpaqlarıdır. Ermənilər isə goreşənlik etməkdənsə, cəhənnəm olub köhnə məskənlərinə - Dəclə və Fərat çaylarının arasına köç etsələr, tarixi ədalət bərpa olunar.**

Ancaq kimə deyirsən? Bu xəstələr Azərbaycanın Ağdam şəhəri ərazisində arxeoloji qazıntılar aparıb burada “Tiqranakert” şəhərinin qalıqlarını “tapdıqlarını” iddia edəcək qədər həyasızdırlar. Əslində bu, parakəndə fəaliyyət deyil, erməni kilsəsinin əsasını qoyduğu xəstə iddialardır, siyasi hakimiyyət də ona uyğun davranır, institutlar da eyni mövqeni paylaşır, şagirdlərə də “Böyük Ermənistan” iddialarını həzm etdirir, xəstə cəmiyyət yetişdirməkdə davam edirlər.

Bir ölkənin ki, konstitusiyasında qonşu ölkənin - Türkiyənin ərazisinə qarşı iddia əksini tapa, ondan hansı normal mövqe gözləyəsən? Xatırlayırsınız yəqin, Serj Sərkisyan bir neçə il əvvəl “Biz Qarabağı aldıq, Ağrının taleyini də gələcək nəsillər həll edəcək” deyə, sərsəm bir bəyanat vermişdi. Təsadüfi deyildi. Həm də bu, erməni diasporunun xoşun gəlmək üçün səsləndirilməmişdi. Sərkisyan Kremldəki “ağa”sının da ürəyindən keçəni ifadə etmişdi.

Sergey Lavrov keçən ilin aprel döyüşlərindən sonra İrəvana gəlmişdi. Gəldi, ermənilərə ürək-dirək verəndən sonra telefonunu əlinə alıb ermənilərin ürəyini dağlayan Ağrı dağının fotosunu çəkdi. Bu da təsadüfi deyildi, Rusiyanın erməni əsilli baş diplomatının Türkiyəyə mesajı idi. Yenə də keçən ilin iyulunda Roma Papası Fransisk Ermənistana gəldi, görüşlərdən sonra Ağrı dağına üz tutub göyərçin uçurtdu. Tarixən böyük güclərin əlində “maşa”ya çevrilmiş ermənilərdən Türkiyəyə qarşı yenə də istifadə olunur, bu bədbəxtlər hələ yuxudadır...

Ara-sıra Gürcüstanın Cavaxetiya bölgəsinə də iddialar tirajlanır. Ermənistanda fürsət gəzirlər Gürcüstanın bu bölgəsini də ələ keçirməyə. Hətta Abxaziyada da erməni əhali aktivləşib son vaxtlar. Bunlar elə zənn edir ki, bölgədə ara qarışan kimi, yeni torpaqlar ələ keçirə biləcəklər. Odur ki, gah Türkiyə, gah Azərbaycan, gah da Gürcüstana qarşı ərazi iddialarını mediaya daşımaqla cəmiyyəti hazır saxlamaq istəyirlər. Amma görünən budur ki, erməni cəmiyyəti artıq bezib...

Son zamanlara qədər Ermənistanda “Əsgər anaları”nın aksiyaları olurdu, övladları Qarabağda öldürülənlər hakimiyyəti lənətləyir, bu soyqırıma son qoymağı tələb edirdilər. Nəticə olmadı, qırğın davam etdi. Budur, artıq “Əsgər ataları” küçələrə çıxıb. İrəvanda dövlət qurumları qarşısına çıxan əsgər ataları övladlarının yad torpaqda məhv edilməsinə son verilməsini istəyib.

Ermənilərin nəslini elə sərkisyanlar özləri kəsir - öz xəstə iddiaları, hakimiyyət hərisliyi ilə. İndi də çalışır ki, 2018-ci ildə baş nazir kürsüsünü ələ keçirsin. Deməli, erməni xalqının Qarabağ uğrunda, yad torpağı naminə qırılması davam edəcək. Ona görə də Sərkisyan danışıqlardan imtina yolunu seçib.

Dağlıq Qarabağdakı saxta rejimin “müdafiə ordusunun komandanı” Levon Mnatsakanyan qondarma respublikanın qondarma baş prokuroruna məktubunda vəziyyəti etiraf edib. Sitat: “İyul ayının əvvəlində Azərbaycanın Silahlı Qüvvələrinin Fizuli istiqamətində yerləşən Alıxanlı kəndində yerləşən hərbi hissədən həyata keçirdikləri raket atəşlərindən sonra, Dağlıq Qarabağ Respublikasının müdafiə ordusunun bir qrup hərbi qulluqçusu panikaya düşərək öz döyüş postlarını tərk edərək qaçıblar. Lakin onlara Kəlbəcər polis postundan keçmək nəsib olmayıb”.

**Vəziyyət belədir. Azərbaycanın hücuma keçməsi, torpaqları azad etməsi həm də Qarabağda ölmək istəməyən erməni hərbçilərinin xilası demək olar. Ancaq nə Ermənistan hakimiyyəti, nə də onun havadarları təbii ki, Qarabağda qırılan və qırılacaq erməniləri xilas etmək niyyətində deyilər. Elə buna görə də avqustun 7-də Tovuzda 13 yaşlı uşağı hədəfə aldılar. Alxanlı qətliamından sonra yenə də uşaq hədəf seçildi. Azərbaycanla döyüşəcək əsgər tapmayan düşmən ölkə savaşı iki dövlət sərhədinə çəkmək istəyir, Rusiya-Ermənistan hərbi birləşməsini - əslində Rusiyanı - müharibəyə cəlb etmək üçün. Elə Türkiyəyə qarşı “Qərbi Ermənistan” iddialarının da arxasında Rusiya amili dayanır. “Arxalı köpək” misalı...**



# Putin Qərbi bu dəfə Abxaziyadan “vurdu”

## Kreml rəhbərinin separatçı bölgəyə səfəri münasibətləri pik həddə çatdırdı

**Avqustun 8-də Rusiya prezidenti Vladimir Putinin reallaşan Abxaziya səfəri dünya gündəminin mövzularından birinə çevrilib. Qəzet çapa gedərkən səfər barədə dolğun məlumatlar olmadığından, geniş bilgi verə bilmədik.**

Səfərin Rusiya-Gürcüstan arasında 9 il öncə baş verən və Abxaziya ilə Cənubi Osetiyanın işğalı ilə nəticələnən “5 günlük” müharibənin başlamasının ildönümünə təsadüf etməsi müzakirələri daha da qızışdırdı. Putinin səfəri həmçinin ötən həftə ABŞ-ın vitse-prezidenti Maykl Pensin Tiflisdə olması və oradan Rusiyaya meydan oxumasından sonraya, NATO təlimlərinin Gürcüstanda keçirildiyi günlərə təsadüf etdi.

Siyasi şərhçilər bu səfəri Rusiyanın Amerika başda olmaqla Qərb ölkələri qarşısında növbəti dirsək göstərməsi kimi qələmə verirlər. Putinin Amerikanın separatçı rejim kimi tanıdığı Abxaziya səfərinin Rusiya-Qərb münasibətlərini daha da kəskinləşdirəcəyi, vəziyyətin dünya və region üçün təhlükəli bir hədə çatacağı vurğulanır. Azərbaycan üçün də bu səfərin bir siqnal olduğu dilə gətirilir.

**Deputat, politoloq Elman Nəsirov** Putininn Abxaziya səfərinin düşünülmüş şəkildə reallaşdığı qənaətindədir: “Bu səfərin anonsu öncədən verilmişdi. Hesab edirəm ki, səfərin avqustun 8-də baş tutması təsadüfi deyil. ”5 günlük" müharibənin başladığı gündə səfərin reallaşması düşünülmüş bir addımdır. Eyni zamanda səfərin Qərb ölkələrinin, Birləşmiş Ştatların Rusiyaya qarşı kəskinləşən sanksiyalar fonunda baş verməsi daha çox suallar doğurur. ABŞ Senatında Rusiyaya qarşı sanksiyalara 100 senatorun 97-i dərhal səs verdi. Bu da təxminən bütün senatorlar deməkdir. ABŞ prezidenti də həmin sənədi dərhal imzaladı. Təsəvvür edin ki, Donald Tramp lap 8 il prezident olsa belə, ondan sonra gələn yeni prezidentin də qəbul edilən bu sənədi ləğv etmək imkanları olduqca məhdud olacaq. Burada söhbət Rusiya-ABŞ münasibətlərinin onilliklərlə korlanmasından gedir. Çünki prezident o sənədi imzaladıqdan sonra onun ləğvi üçün konqresin 3/2-nin səs çoxluğu lazımdır. Onu isə əldə eləmək çox müşkül məsələdir. Bu sanksiyaların Rusiya iqtisadiyyatının əsasını təşkil edən neft və qaz sektorunu əhatə etməsi şübhəsiz ki, rəsmi Moskvanı son dərəcə qıcıqlandırdı. Nəticədə Rusiyanın addımları da özünü çox gözlətmədi. Artıq Rusiyadan 7 mindən çox ABŞ diplomatı çıxarılıb. Onların sayı Rusiyanın ABŞ-dakı diplomatlarının sayı qədər azaldılıb. Bütün bunlar onu göstərir ki, Rusiya-ABŞ münasibətləri getdikcə daha da gərginləşməkdədir. Bir çox hallarda “soyuq müharibə” dövrünün təkrarlandığı barədə mülahizələr səslənməkdədir. İndiki halda Putinin Abxaziyaya səfəri həm də ABŞ-a qarşı sərt cavab kimi dəyərləndirilə bilər.

ABŞ Abxaziya və Cənubi Osetiyadakı hakimiyyəti separatçı rejimlər kimi tanıyır. Amma Amerikanın separatçı rejimlər kimi tanıdığı yerə Putin səfər edir. Xüsusilə, ABŞ-ın vitse-prezidenti Maykl Pensin Gürcüstana məlum səfəri və həmin səfər zamanı Rusiya ilə bağlı çox kəskin ifadələr işlətməsinin özü də onu göstərir ki, Vaşinqton-Moskva münasibətləri çox gərgin mərhələyə qədəm qoyub. Bunu Rusiyanın baş naziri Dmitri Medvedev “ticarət müharibəsi” kimi dəyərləndirdi. Buna başqa cür də ad vermək mümkün deyil. Bu müharibədən başqa cürü real müharibə olar. Burada da söhbət iki nüvə dövlətindən gedir. Bu baxımdan bu iki ölkə arasındakı “ticarət müharibəsi”ndən başqa müharibə artıq qlobal fəlakət deməkdir. Mümkün olan “ticarət müharibəsi”dir ki, bunu da Amerika başda olmaqla Qərb dövlətləri Rusiyaya qarşı aparırlar. Bu reallıqda təbii ki, regiondakı təhlükəsizlik məsələləri daha böyük aktuallıq kəsb etməyə başlayır".



**Elman Nəsirov:** “Putinin Abxaziyaya səfəri ABŞ-a qarşı sərt cavab kimi dəyərləndirilə bilər, münasibətlər çox gərgin mərhələyə keçir...”

**Politoloq Azərbaycanın yürütdüyü hazırkı siyasətin ən doğru yol olduğunu da qeyd etdi:** “Burada Azərbaycanın maraqları bizi ən çox düşündürür. Cənab prezidentin yürütdüyü balanslı siyasət bu günün reallıqlarına tam adekvat cavab verir. Hazırda Azərbaycan Rusiya ilə münasibətlərini inkişaf etdirir. Bu inkişaf heç bir halda ABŞ əleyhinə deyil. Eyni zamanda Azərbaycan Qərb ölkələri ilə də çox sıx münasibətlərə malikdir. Strateji tərəfdaşlıq münasibətlərimiz var, həm ABŞ, həm də Rusiya ilə. Azərbaycanın yeritdiyi bu siyasət ən düzgün siyasətdir. Məhz bu siyasət nəticəsində xatırlayırsınızsa, Rusiya və ABŞ-ın qərargah rəislərinin görüşü Bakıda keçirilmişdi. Bu Azərbaycanın apardığı məntiqli, balanslı, çevik siyasətdən irəli gələn addım olmuşdu. İndiki halda Rusiya və Qərbin münasibətlərinin gərginləşməsi fonunda Azərbaycan özünün ənənəvi siyasətinə sadiqdir. Bu siyasət Rusiya-ABŞ arasındakı gərgin münasibətlərin bizə mənfi təsirlərinin qarşısını almaq üçün aparılan ən doğru siyasətdir”.

❑ **Cavanşir ABBASLI**

# Ziya Məmmədov ölkədən gedib?

**Keçmiş nazir Ziya Məmmədovun ölkəni tərk etməsi barədə informasiya yayılıb. O da bildirilib ki, eks-nazir ölkəni həmişəlik tərk etmək qərarına gəlib. Modern.az saytı məsələni dəqiqləşdirmək üçün keçmiş nazirin qardaşı Elton Məmmədovla əlaqə saxlayıb. Eks-deputat xəbərə sərt cavab verib. O, deyib ki, xəbər həqiqəti əks etdirmir: “Ölkəni də, vətəni də şərəfsizlər tərk edər! Ziya Məmmədov ölkəsini, vətənini niyə tərk etməlidir ki?”**



Elton Məmmədov



Ziya Məmmədov

Sabiq deputat Elton Məmmədov mətbuatın Ziya Məmmədovla bağlı ona sual ünvanlamasını yaxşı qarşılamadığını da deyib: “Dəfələrlə bütün mətbuat nümayəndələrinə demişəm ki, mənimlə bağlı nə sualınız varsa, cavablandırmağa hazıram. Amma Ziya Məmmədovla bağlı mənə sual verməyin!”

YENİ MÜSAVAT

N 165 (6779) 9 avqust 2017

# “Mənim səlahiyyətimə daxil olan məsciddir, molladır, qəbiristanlıqdır”

## Siyavuş Novruzov: “Hüquq-mühafizə orqanları araşdırıb öz sözlərini deyəcək, qərarını verəcək”

**YAP-ın icra katibinin müavini, deputat, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov “Yeni Müsavat”a müsahibə verib. Hakim partiyanın rəhbərliyinə daxil olan müsahibimizlə “Qaçqınkom” sədrinin nəvəsinin törətdiyi avtoqəzadan başlamış, 2018-ci il seçkilərinə qədər bir sıra məsələlərdən danışdıq.**

***- Siyavuş bəy, bir ara mətbuatda görünmədiniz. Yəqin istirahətdəydiniz, eləmi?***

- Yox, istirahətə getməmişdim. Uşağın təhsili, yay məktəbi ilə bağlı bir-iki məsələ var idi, onunla məşğul idim. Həm dil kursları, həm sərbəst yaşaması ilə əlaqədar indidən hazırlıq işləri görürük ki, öyrənsin, uyğunlaşsın ki, gələcəkdə təhsilini artırmaq istəsə, əlavə təhsil almaq istəsə, tam hazırlıqlı olsun.

***- Övladınızın neçə yaşı var?***

- 15 yaşı var, indidən bu işlərə başlayırıq ki, sonrakı illərdə çətinlik çəkməsin.

***- Bəs, yay tətili?***

- Mən tətilə çıxanda da Naxçıvana gedirəm. Ən yaxşı tətil elə ordadır.

***- Siyavuş bəy, “Qaçqınkom”un sədri Əli Həsənovun nəvəsinin törətdiyi avtoqəza böyük rezonansa səbəb oldu. Hakim partiyadan deputat həmkarınız Aydın Mirzəzadənin şərhini oxudum, amma deyəsən, digər açıqlama olmadı. Siz partiya rəhbərliyində təmsil olunan şəxs kimi bu barədə nə deyə bilərsiniz?***

- Bu, hüquq-mühafizə orqanlarının səlahiyyətlərinə aid məsələdir. Ona görə də bunun partiyaya heç bir aidiyyəti yoxdur.

***- Razılaşmaq olar. Amma eyni zamanda cənab Əli Həsənov YAP sədrinin müavinidir...***

- Təbii. Amma bunun partiyaya heç bir aidiyyəti yoxdur.

***- Bəs, hazırda hakim partiyanın gündəliyindəki əsas məsələ nədir?***

- Biz partiyanın konfranslarını keçiririk. Rayon təşkilatlarında tədbirlər keçirir, ilk təşkilatlarla əlaqələr məsələsini həll edirik, partiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi ilə məşğul oluruq. Həmçinin gələcəkdə keçiriləcək seçkilərlə əlaqədar kadr bazasının formalaşdırılması ilə məşğuluq. 5 mindən artıq məntəqələr mövcuddur ki, bunlarda müşahidəçilər, məşvərətçi səs hüququ üzvləri təyin edəndə bu, 10 mindən artıq şəxs edir. Həmçinin imza toplaya biləcək şəxslər var. Yəni dünya praktikasına uyğun olaraq biz seçkilərə hazırlığı qabaqcadan başlayırıq. Birinci növbədə partiya təşkilatının sıralarına baxırıq. Artıq 84 təşkilatdan 63-də konfrans keçirilib, qalan 21-də də keçiriləcək. Bu ilin sonuna qədər yekunlaşdırmağa çalışacağıq. Partiyamızın yaranmasının 25 illik yubileyi gəlir, bununla bağlı bir sıra silsilə tədbirlərimiz keçiriləcək. Həmçinin layihələrin, proqramların hazırlanması, rayon təşkilatlarının qərargahları, maddi-texniki bazası, orada çalışan işçilərin təkmilləşdirilməsi, kursların artırılması, əlaqələrin genişləndirilməsi, rayon təşkilatlarının İdarə Heyətində hesabatların təqdim edilməsi, Qadınlar Şurası, Gənclər Birliyinin işinin aktivləşdirilməsi, sosial şəbəkələr və partiya həyatı ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi ilə məşğuluq. Gələn ildən isə inşallah bütün fəaliyyətimiz seçki istiqamətində olacaq.

***- Hələ ki partiyanın seçkilərdəki namizədi ilə bağlı konkret qərarınız yoxdur, eləmi?***

- Yox, bu, partiyanın qurultayında müəyyənləşdirilir. Partiyanın qurultayının da çağırılması sədrin və yaxud Siyasi Şuranın qərarı ilə həyata keçirilir.

***- Qurultay bu il baş tutacaq, yoxsa 2018-ci ilə qalacaq?***

- İlin axırına qədər konfranslar qurtarmalıdır. Çünki nümayəndələr konfranslarda seçilir. Bu proses başa çatdıqdan sonra artıq qurultay haqqında fikirləşmək olar.

***- Deputat həmkarınız Astan Şahverdiyev son açıqlamaları ilə yenə də diqqəti özünə cəlb elədi və buna görə hətta İntizam Komissiyasının sədri Ağacan Abıyevi qəzəbləndirdi. Siz vaxtilə İntizam Komissiyasının sədri olmusunuz. Necə bilirsiniz, niyə bəzi deputatlar qalmaqallı çıxışlarla gündəmdə qalmağa bu qədər həvəslidirlər?***

- Bununla bağlı İntizam Komissiyası məşğul olur, onların səlahiyyətindədir. Vaxtilə mən bu komissiyanın sədri idim, amma indi İctimai birliklər və dini qurumlar komitəsinin sədriyəm. Ona görə də mənim səlahiyyətimə daxil olan məsciddir, molladır, qəbiristanlıqdır...(gülür) O mövzularla bağlı nə maraqlandırsa, buyura bilərsiniz.

***- Amma belə görünür ki, İntizam Komissiyasının sədri olarkən çəkdiyiniz əziyyətlər boşuna gedib, bəzi deputatlar yenə də öz ampulasındadır, hətta spikerin xəbərdarlıqlarına, prezidentin deputatların etik davranış kodeksini imzalamasına baxmayaraq...***

- Bir şeyi deyə bilərəm, mən İntizam Komissiyasına elə sədrlik etmişəm ki, heç kəsin işi bu komissiyaya düşməyib.

***- Çox humanist olmuşunuz...***

- Yox, o qədər ciddi olmuşam ki, çalışıblar mənə işləri düşməsin (gülür).

***- Molla, məsciddən söz düşmüşkən, siz bir neçə dəfə demişdiniz ki, bu sahədə qanunvericiliyə təkliflər olacaq. Bu sahədə vəziyyət necədir?***

- İş gedir. Qəbiristanlıqlarla bağlı artıq proses tam təkmilləşib. Yəqin ki, nümunəvi qəbiristanlıqların yaranması və idarə olunması barədə Nazirlər Kabinetinin qərarı olacaq. Bütün instansiyalardan artıq rəy alınıb, tam hazır vəziyyətdədir. Ola bilsin bu, qanun şəklində olsun. Hələ ki məsələ müzakirədədir, inşallah sentyabrda ortaya çıxar. Siyasi partiyalar, o cümlədən QHT-lərlə bağlı təkliflər gündəlikdədir.

***- Söhbət qanunların sərtləşdirilməsindən gedir?***

- Təkmilləşdirmədən, şəffaflığın təmin olunmasından. Maliyyə məsələsi, maliyyə dövriyyəsi bu gün dünyada hər kəsi maraqlandırır. Çünki terrorizmin, ekstremizmin maliyyələşməsi kimi məsələlər qanunla qadağan olunur. Siyasi partiyaların maliyyələşməsi də qanunla tənzimlənir. Burada da şəffaflıq önəmli məsələdir ki, hər bir təşkilatın maliyyə mənbələri məlum olsun və onun məsrəfləri müəyyənləşsin.

***- 2018-ci prezident seçkisi ilindən gözləntiləriniz nədir?***

- Təbii ki, hər bir seçki ili qaynar keçir. Siyasi debatlar, siyasi ab-hava olduğundan seçki ili bütün dünyada digər illərdən daha “isti” keçir.

***- Vaxtaşırı Azərbaycanın keçmiş məmurları, yaxud oliqarxlarla bağlı xəbərlər yayılır. Rusiyanın dəstəklədiyi sürpriz namizəd ortaya çıxa bilərmi?***

- İnanmıram. Rusiya ilə Azərbaycanın münasibətləri, prezidentlər, dövlət və xalqlar arasındakı münasibətlər normaldır. Ara qızışdırmaq istəyən, erməni “barmağı” olan qüvvələr var ki, indiki münasibətlərin üstünə kölgə salmaq istəyir. Ona görə də dezinformasiya yayır, müxtəlif məqalələr dərc edir, yaxud televiziya verilişlərində qərəzli fikirlər söyləyirlər. O cümlədən Rusiyanın ayrı-ayrı dövlət strukturlarında kifayət qədər ermənilər yerləşib, telekanal və mətbuat orqanlarında ermənilər fəaliyyət göstərir, dolayısı ilə Azərbaycan və Türkiyəyə qarşı fikirlər söyləyir, ictimaiyyəti çaşdırmaq istəyir. Belələri təbii ki, olacaq, amma onlar iki dövlət arasını korlamaq imkanında deyillər. Həm də ki, seçkidə xalqın rəyi əsasdır, qalan məsələlərin mənası yoxdur. Bu gün Azərbaycan prezidentinin gördüyü işlər, atdığı addımlar, sosial layihələrin həyata keçirilməsi, kənd təsərrüfatının inkişafı ilə əlaqədar qərarları və digər hadisələr ictimaiyyət tərəfindən bütövlükdə dəstəklənir. Xalqın dəstəyi olan yerdə digər kənar qüvvələrin heç bir rolu ola bilməz.

### “Rusiyanın dəstəklədiyi sürpriz namizədin ortaya çıxacağına inanmıram”



***- Söhbətin əvvəlində dediniz ki, bu məsələyə qarışmırsınız. Amma bu da var ki, ayrı-ayrı məmurlar öz hərəkətləri ilə prezidentin gördüyü işlərə xələl gətirirlər.***

- Bunlar hamısı hüquq-mühafizə orqanlarının işidir, onlar araşdırıb öz sözlərini deyəcəklər, qərarlarını verəcəklər. Bu məsələnin mənim sahəmə - istər partiya baxımından, istərsə də Milli Məclisdəki fəaliyyət baxımından - heç bir aidiyyəti yoxdur.

***- Belə yanaşmalar da var ki, bu hadisədən sonra həmin məmur xalqın qarşısına çıxıb üzr istəməli və postunu təhvil verməli idi.***

- Yenə deyirəm, mən bu məsələyə qarışmıram.

❑ Elşad PAŞASOY

# Əli Həsənovun nəvəsi məhkəmədə: “Peşmanam”

**Baş nazirin müavini Əli Həsənovun nəvəsi Nail Allahverdiyev barəsində həbs qətimkan tədbiri Xətai Rayon Məhkəməsində seçilib. Bu barədə APA-ya təqsirləndirilən şəxsin vəkili Sevdiyar Bayramov məlumat verib.**



Nail Allahverdiyev

Vəkilin sözlərinə görə, hakim İbrahim İbrahimlinin sədrliyi ilə keçirilən məhkəmə iclasında təqsirləndirilən N.Allahverdiyev özü də iştirak edib. S.Bayramov həmçinin, müvəkkilinin baş vermiş hadisədən peşmançılıq hissi keçirdiyini, apelyasiya şikayətinin verilməsi ilə bağlı isə hələlik qərar vermədiklərini qeyd edib.

Xatırladaq ki, N.Allahverdiyev bu il avqustun 3-də saat 21 radələrində paytaxtın Nərimanov rayonu ərazisində “Mercedes-Gelandewagen” markalı avtomobillə iki nəfərin ölümü və iki nəfərin müxtəlif dərəcəli bədən xəsarətləri alması ilə nəticələnən ağır yol-nəqliyyat hadisəsi törədib. Faktla əlaqədar Cinayət Məcəlləsinin 263.3-cü (yol hərəkəti qaydalarını pozma - iki və daha artıq şəxsin ölümünə səbəb olduqda) və 264-cü (Yol-nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanıb. Bakı şəhər sakini, 1994-cü il təvəllüdlü Nail Elman oğlu Allahverdiyev barəsində məhkəmənin qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.



# Cırcıramalara qarşı haqsızlıq

Zamin HACI
zaminhaci@gmail.com

**Bir az qabaq bəzi abituriyentlər universitetə qəbulda yüksək bal toplasalar da ödənişli ixtisaslara düşmüşdülər, deyirdilər oxumaq üçün pul verməyə imkanımız yoxdur, yəqin sentyabrda heç məktəbə getməyəcəyik. O zaman müdrik zəhmətkeşlərimiz də varlı adamlarımıza məsləhət görürdülər, müsahibələr verir, status yazır, ən az imkanı çatan isə qaranlıq küçədə-dalanda, yaxınlıqda hüquq-mühafizə orqanı əməkdaşı olmadığına əmin olandan sonra öz-özünə donquldanırdı, deyirdilər kaş bu varlılar hərəsi 5-10 imkansız tələbəni oxudaydı. Guya beləcə millətin gələcəyinə investisiya qoyular, dövlətimiz inkişaf edər, həmin bu varlı məmurlar üçün də yaxşı olarmış.**

Gülməli söhbətlər idi. Bir az da şit idi. Şəxsən mən uşaq vaxtı baxdığım "Komediyalar aləminə səyahət" televiziya verilişini xatırladım. Əslində o verilişdə gülməli heç zad olmurdu, ağlamalı süjetlərə camaat oturub baxırdı, gülürdü. Alternativimiz yox idi. Neyləmək olardı. İndi də "Bozbaş Pikçers" verilişi var imiş, ona gülənlər saysızdır. Mən bir dəfə güclə özümü məcbur eləyib bunun 5 dəqiqəsinə baxdım, millətimizdən nə qədər uzaq düşdüyümü, yadlaşdığımı, hətta manqurta döndüyümü anladım. Əgər millət bu səviyyəsizliyə və bambılılığa gülürsə, mən gülə bilmirəmsə, demək mən yadam. Mənəvi albinosluq da demək mümkündür. Ayrı cür ola bilməz. Yaxşı bir "Gələnvaqen" maşını olsa özümü altına atardım. Bu cür yaşamağın bəlkə də heç bir mənası yoxdur.

Məna, ümumiyyətlə, ciddi məsələdir. Örnək üçün, biz məmurlara nəfslərinə hakim olmağı, uşaqlarına, nəvələrinə düzgün tərbiyə verməyi, nə bilim, humanizmi, vətənpərvərliyi-zadı məsləhət görə bilərik. Ancaq onlar bunu başa düşürmü? Onlar üçün bu anlayışlar tamam başqa dünyanın, başqa ölçü sistemlərinin detallarıdır. Bu yaxında köhnə dostum, riyaziyyatçı, Türkiyədə uzun illər dərs demiş İsmixan Yusuf özünün bir kitabını mənə bağışlamışdı. Kitabda riyaziyyatın, fizikanın, elmin populyarlaşması üçün bölmələr vardı, bir də İsmixan müəllim heyvanların həyatından müşahidə elədiyi maraqlı əhvalatları yazmışdı. Bax, mən kitabı oxuyanda (deyilənə görə burada "bax" sözündən sonra vergül qoymaq lazım deyilmiş, çünki bax sözü ədat imiş; guya mənə ədat çox lazımdır elə, nəsə çox ədabaz söhbətdir) gördüm riyaziyyata aid, içində çoxlu rəqəmlər olan bölməni anlamıram. Ancaq heyvanlar haqda olanları çox yaxşı anlayıram. Çünki o məşhur lətifədə deyilən kimi, "hərənin öz kruqu vardır". Riyaziyyatı qoy getsin Qriqori Perelman oxusun, lap elə Məzahir Pənahovla Elman Rüstəmov öyrənsin. Biz heyvanların içində yaşayırıq, heyvanların həyatını da öyrənməliyik.

Misal üçün, mən İsmixan müəllimin kitabından cırcırama haqda bir dəhşətli həqiqəti öyrəndim. Sən demə biz uzun illərdir bu böcəyə qarşı ədalətsizlik edirmişik. ( Bəlkə də Milli Şuranın sədri Rüstəm İbrahimbəyovu bu ədalətsizliyə görə prezident qoya bilməmişdik). Ortada "Cırcırama və qarışqa" adlı bir təmsil vardır. Rus şairi Krılov yazıbdır. Əslində süjeti fransız Lafontendən çırpışdırıbdır, o isə Ezopdan, Ezop allah bilir kimdən... Maraqlıdır ki, Ezopun vaxtında qarışqa ilə dialoqu bir böcək aparır, konkret cırcırama söhbəti yoxdur. Lafonten isə bunu rusların "tsikada", Anadolu türklərinin "aqustos böcəyi" adlandırdığı başqa böcəklə təsvir edib. Bu böcək isə cırcırama deyil. Açığı heç bilmirəm o milçəyə və eşşəkarısına oxşar böcək bizim dildə necə adlanır. Krılovda isə cırcıramadır.

Uzun sözün qısası, İsmixan müəllim kitabında yazıb ki, əslində cırcıramanın qışda qarışqadan yemək istəmək imkanı təbiətən yoxdur, çünki cırcıramanın ömrü elə 3-4 aylıq yay boyuncadır. Həm də cırcırama çox xeyirli həşəratdır, zərərli cücüləri qırır, kənd təsərrüfatına, insanlara, elə o axmaq qarışqanın özünə də böyük kömək edirmiş! Necə? Ölərək. Sən demə cırcırama ömrünü bitirəndə qarışqalar xeyli müddət onun cəsədiylə dolanırmış.

**Bizə isə təbliğat güliblər ki, mahnı oxuma, yoxsa qışda ac qalarsan.**

# İşğalçı ölkə iki qlobal gücün məngənəsində

**Ötən saylarımızda yazdığımız kimi, Rusiyanın ABŞ tərəfindən yeni və daha sərt sanksiyalarla sıxışdırılmağa başlaması Ermənistanı da təlaşlandırmağa başlayıb. Doğrudur, sanksiyalar birbaşa İrəvana qarşı yönəlməyib. Ancaq bu, zahirdə belə görünür, gerçəkdə isə əlbəttə ki, Ermənistan de-fakto Rusiyanın bir subyekti, daha dəqiqi, vassalı və hərbi forpostu olduğundan, ən azı, 2047-ci ilədək onun ayağından asıldığından, nəticələrə işğalçı ölkə də şərik olmaq zorunda qalacaq.**



## ABŞ-dan Ermənistana hədə kimi ismarış: "Donorunu dəyişməsən!.."

### İrəvan üçün dilemma: təcavüzkar Kremlə "badalaq" gəlib Vaşinqtonu seçə bilərmi; **amerikalı tanınmış politoloq:** "ABŞ zaman keçdikcə Ermənistana işğalçı Rusiyanın müttəfiqi kimi baxmağa başlayacaq" - Bakı üçün nikbin gözlənti...

"Qarabağ məsələsi Azərbaycan üçün keçilməz "qırmızı xətt", dost-düşmən təsnifatı üçün ən güclü testdir. Torpaqlarımızın işğalını tanımayan, Ermənistanı işğalçı saymayan bir dövlət Azərbaycanın dostu, müttəfiqi, tərəfdaşı ola bilməz" (Çərçivə)

Hərçənd, bəzi ifrat nikbin erməni ekspertləri yeni vəziyyəti Ermənistan üçün bir şans, fürsət kimi də qiymətləndirirlər - siyasi oriyentasiyanı Qərbə dəyişmək baxımından təbii ki. Fəqət bu, mümkünmü? Kreml ermənilərə izn verərmi ki, heç nə olmayıbmış kimi, onlar Rusiyanı atıb Qərbə - ABŞ-a, Avropaya üz tutsunlar, sığınsınlar, tutaq ki, təhlükəsizlik çətirini KTMT-dən NATO-ya dəyişsinlər?

Şübhəsiz ki, yox. Qərbyönlü seçimini hətta Azərbaycan eləsə belə, - hərçənd, rəsmi Bakının buna imkanları qat-qat böyükdür, - Rusiya sarıdan Azərbaycan üçün müəyyən neqativ nəticələr ortaya çıxa bilər, nəinki bütünlüklə Kremlin nəzarətində olan, hərbi cəhətcə də, iqtisadi cəhətcə də Rusiyadan tam asılı olan Ermənistan üçün.

*****

Bu xüsusda Rusiyanın aparıcı iqtisadçılarından biri, publisist, iqtisadi elmlər üzrə professor Nikita Kriçevskinin Kremlə qarşı ABŞ sanksiyalarının sərtləşdirilməsi haqda qanunun region ölkələrinə - Azərbaycana və Ermənistana təsirindən danışarkən söylədiyi bir fikir diqqət çəkməyə bilmir. O, deyib ki, bu sanksiyalar Azərbaycana heç cür təsir etməyəcək, çünki Azərbaycan özünü dolandırmaq iqtidarındadır və neft-qaz sektorundan savayı, digər inkişaf etmiş sənaye sahələrinə də malikdir. Amma Ermənistan?

"O ki qaldı Ermənistana, anlamaq lazımdır ki, Rusiya bu ölkənin donorudur. Heç hərbi-siyasi amili - Ermənistanda Rusiyanın hərbi bazasının mövcudluğunu nəzərə almıram. Rusiyanın Ermənistana yardım imkanları kifayət qədər azalacaq", - deyə iqtisadçı ermənilərə bəd müjdə verib.

*****

Məsələ də elə bunda - Rusiyanın işğalçı ölkə üçün donor rolunda çıxış eləməsindədir. Özü də bu, təkcə iqtisadi-maliyyə donorluğu deyil, daha önəmlisi - siyasi və təhlükəsizlik donorluğudur. Yəni Rusiya bütövlükdə Ermənistan adlı qondarma dövlətin əsas varlıq qarantı və sponsorudur.

Hamı bilir ki, köçürülmə ermənilərdən ibarət olan bu saxta dövləti Qafqazda məhz ruslar yaradıb - təbii ki, öz maraqları naminə. Rusiya olmazsa, Ermənistan adlı dövlətin olan-qalan müstəqilliyi də böyük sual altına düşəcək. Çünki Türkiyə və Azərbaycan kimi böyük qonşular var və Ermənistan tarixi türk torpaqlarında təşəkkül tapıb.

Müxtəsəri, Ermənistanın Rusiyadan asılılığı yaxın tarixdən gələn bir asılılıqdır, köklü asılılıqdır. Adi asılılıq deyil ki, onu ermənilər indi Rusiyaya qarşı sanksiyalar tətbiq olunacaq deyə, asanca qıra, ləğv edə biləlr.

*****

Amerikalı ekspertlər də Vaşinqtonun yeni sanksiyaları fonunda Rusiyanın forpostu Ermənistana yaxşı bir perspektiv, xoş gələcək vəd eləmirlər.

"ABŞ-ın vitse-prezidenti Mayk Pens Estoniya, Gürcüstan və Monteneqroya səfərləri çərçivəsində həmin ölkələrə ABŞ prezidenti Donald Trampın "Rusiya təcavüzünə qarşı sizi qorumağa hazırıq" mesajını çatdırıb". Bunu tanınmış amerikalı analitik, vaxtilə Qarabağ məsələsinin həlli üçün "ərazi mübadiləsi" variantını təklif eləmiş Pol Qobl deyib və əlavə edib ki, bu mesaj eyni zamanda İrəvana verilmiş bir xəbərdarlıqdır.

Politoloqun sözlərinə görə, yeni sanksiyalar Rusiyanın təşkil etdiyi layihələrdə iştirak edən istənilən ölkəni cəzalandırmağa imkan verəcək. "ABŞ zaman keçdikcə İrəvana tez-tez Rusiya-Ermənistan münasibətləri və Rusiya təcavüzü prizmasından baxmağa başlayacaq. Əgər Ermənistan Rusiyanı müdafiə etsə, onda çətin ki, ABŞ-la münasibətləri inkişaf etsin" - Qobl bildirib.

*****

Doğrudur, hələ ki Birləşmiş Ştatlar Ermənistana Rusiya kimi - işğalçı qismində baxmır, işğalçı Ermənistana qarşı da sanksiyalar haqda düşünmür. Hərgah, Ermənistan da Rusiya kimi öz qonşusunun böyük bir hissəsini işğal edib, beynəlxalq hüququ kobud şəkildə tapdayıb, BMT TŞ-nin, Avropa Şurasının, Avropa Parlamentinin, 57 dövlətdən ibarət İslam Əməkdaşlıq Təşkilatının onu işğalçı kimi tanıyan qətnamələrinə məhəl qoymur, amma ümid edək ki, nəhayət, "buz sınacaq" və ABŞ da üzünü reallığa tutacaq, onu etiraf edəcək.

**Bu yöndə Rusiyaya qarşı sanksiyalar həqiqətən yardımçı rol oynayacaqsa, o zaman bundan ən çox elə ABŞ-ın özü udacaq - həm də Azərbaycanı geridönməz şəkildə, həmişəlik qazanmaqla. Çünki Dağlıq Qarabağ məsələsi Azərbaycan üçün keçilməz "qırmızı xətt", dost-düşmən təsnifatı üçün ən güclü testdir. Torpaqlarımızın işğalını tanımayan, Ermənistanı işğalçı saymayan bir dövlət Azərbaycanın dostu, müttəfiqi, tərəfdaşı ola bilməz.**

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 165 (6779) 9 avqust 2017

# Əzraillə "bəhsə girən" ölüm avtoşları

## Neçə-neçə insan həyatına bais olmuş "Mara 049" kod adlı erməni avtoş qızın himayəçiləri kimlərdir?

**Dünya mətbuatında son zamanlar ən çox oxunan, ətrafında oxucu kütləsi yığan mövzu "Stritreyser" mövzusudur. Qulaqlarımızı kar etmiş "avtoxuliqan" kəlməsi, yadda saxlayın, müasir Qərb mətbuatında artıq yoxdu. Onu, bax bayaq dilimin ucuna güclə gətirdiyim "stritreyser" termini əvəzləyib.**




Kimdi, yaxşı, bu stritreyserlər? Niyə bu ədabazlar özlərinə təzə ad fikirləşib qondarıblar? Niyə Bakının, Nyu-Yorkun, Moskvanın mərkəz küçələrində veclərinə heç kimi almırlar bu stritreyserlər... üzr istəyirəm avtoxuliqanlar?

Əvvəllər şəhər kənarlarındakı boş ərazilərdə öz gurultulu motorlarını sınaqdan çıxaran bu şeytan balaları deyəsən son vaxtlar təkcə Bakıda deyil, yox... dünyanın hər nöqtəsində, hətta uzaq Banqladeşdə belə kölgədən çıxırlar? Bilə-bilə, açıq-aşkar öz hörmətsizliklərini nümayiş etdirirlər yol kənarındakı adi, sıravi piyadalara? Yol-hərəkət qaydalarına?

***

Cavabı sadədir məncə bu bəsit sualların. Şou-biznes mövzuları çox tez, iti sürətlə köhnəlir deyə, burda yenisinə daim tələbat var. Artıq "maşın-şou" kimi layihələrlə sadəlövh insanları girə keçirmək mümkün deyil. Avtomobil reklamçıları isə, yadda saxlayın, çox həyasız tayfadı. Reklam zənbillərindəki sifarişləri həyata keçirmək uğrunda nəyə desən, hətta cinayətə belə gedib dillərinin ucunda heç "uf!" da deməzlər. Bu dəllallar öz ənənəvi mövzularını, brendlərini son zamanlar sıfırdan yeniləşdiriblər. Açıq reklamdan girişiblər gizli reklama.

Əvvəlcə, avtoxuliqan adını "stritreyser" brendi ilə əvəzləyiblər. Sonra mətbuata, satqın jurnalistlərə göz vurublar bəs bu stritreyserləri daim diqqət mərkəzində saxlasınlar. Mətbuat indi bu stritreyserlərin reklamını dünyanın dörd tərəfində eyni sürət, eyni fəndlər ilə aparır. Rusiyada bu stritreyser tutaq ki, məşhur Mara Baqdasaryandı. Bizdə isə...

Bizdə isə adı qəzet manşetlərindən düşməyən Nail Alahverdiyev.

Kimdi yaxşı, bu stritreyserlər? Hansı pərdəarxası güclərə tabedirlər? Nəyə görə neft, avtomobil maqnatları indi bu tayfanı irəli çəkib reklamlarını yapırlar mətbuat səhifələrində? Şəhər küçələrində?






Başlayaq, dünya mətbuatındakı oxşar nümunələrdən.

**DOSYE**: Mara Baqdasaryan. 23 yaşı var. Guya 3 noyabr 1993-cü ildə, guya Qroznıda, yaxud Aşağı Nagildə dünyaya göz açıb. Ərdə deyil. Tələbədi guya. Ancaq təhsil aldığı institutu jurnalistlər zərrəbinlə belə axtarıb tapa bilmirlər. Valideynləri çoxdan boşanıblar. Atası Elmar Baqdasaryan "Nuçar" şirkətinin bossudur. Bütün Moskvanı ət məhsulları ilə təhcizi edir.

**MƏXFİ ADI:** Moskva sürücüləri arasında bu avtoş qız "Mara 049" kod ismi ilə tanınır. Ad bu qızın dövlət avtomobil nömrəsi ilə eynidi.

**SEVDİYİ AVTOMOBİL**: "Mercedes". Deyilənə görə, bu şirkətin reklam şöbəsi tərəfindən gizlincə maliyyələşdirilir. Bunda, təəccüblü heç nə görmürəm. Avtomobil şirkətlərinin artıq əsas reklam qəhrəmanları Şumaxerlər deyil, Mara kimi avtoşlardı indi. Mara barədə ağızdolusu danışan Moskva jurnalistləri "Lukoil" kəlməsinə növbə çatarkən keçirlər adətən pıçıltıya. Deyirlər, Maranın gizli sponsorlarından biri məhz bu varlı neft şirkətdə işləyir. Pula pul demir.

**HƏYAT TƏRZİ**: Bütün sritreyserlər kimi Mara günortanı öz yatağında keçirir. Bütün günü yarıyuxulu, gözləri yumula-yumula gəzir. Sükan arxasına oturdumu, vəssalam. Anında dirilib canlanır elə bil. Dönür ölüm ilahəsinə. Ayağını qaz pedalına basmağı ilə gözdən itməyi bir olur.

**AVTOMOBİL KOLLEKSİYASI**: Nissan, Mercedes, BMW, AMG şirkətlərinin "sportkar" modellərini şəxsi kolleksiyasının gözü bilər. İxtiyarında üç-dörd "superbayk" da var. Əmisi Artur Baqdasaryan - "Rosneft" şirkətinin səhmdarı, son avtomobil markalarını çox sevir. Açarlarını hər il qardaşı qızına hədiyyə edir.

**QƏZALARI**: Stritreysersən? Bizim dillə desən avtoşsan? Beləysə, gərək mütləq buzlu Moskva küçələri üzərinə öz təkər izlərini həkk edəsən. 2015-ci ilin 3 oktyabrında, Moskvanın mərkəzi Kutuzov xiyabanında Mara Baqdasaryanın "BMW"-si qəfildən öz idarəsini itirir. Başlayır drayfa. Drayf isə, avtoşluğun zirvəsi, pik nöqtəsidir. Stritreyserlər adətən belə anlarda əllərini sükan üzərindən götürürlər. Transa qapılıb kayfa düşürlər. Ancaq bu kayfın ömrü az çəkir nədənsə. "BMW" gedib girir qarşıdan gələn "Range Rover"in qarnına. Arxadan gələn "Porsche Cayenne" sürücüsü ayağını əyləcə bassa da, nə xeyri? Avtomobil idarəsini itirib çırpılır divara.

"Range Rover" alışır bu vaxt. Sürücü həlak olur. Qəzanın səbəbkarları, "BMW"dəki sərnişinlər - Anzor Merjoyev, Mark Qalperin, İslam Tataraşvili, nəhayət Mara Baqdasaryan tanınmaz hala düşürlər. Mark Qalperin hadisə yerindəcə keçinir. Həyatı tükdən asılı qalan İslam Tataraşvili reanimasiya yerləşdirilsə də, heç nə. Yazığı xilas etmək mümkün olmur.

Üç həftə komada yatan Mara sonra birtəhər dirilir. Məcbur qalır plastik əməliyyatdan keçsin.

***

Labüd həbsdən təcrübəli vəkili David Kemulari köməyi ilə canını qurtaran Mara Baqdasaryan, deyirsiz bundan sonra adam olur, hə? Ay-hay!

Qudurğanlar görürlər dərə xəlvət, tülkü bəydir Moskva küçələrində, qayıdırlar köhnə adətlərinə. Qərara gəlirlər öz avtoş hünərlərini canlı yayında internet səhifələrinə göstərsinlər. 22 may 2016-cı ildə nömrəsiz "Gelendvagen" sükanı arxasında əyləşmiş Mara Baqdasaryan onu təqib edən yol polislərinin əmrlərinə tabe olmur. Böyründəki nişanlısına - "Lukoil" vitse-prezidentinin oğlu Ruslan Şamsuarova güvənərək dayanmaq nədi bilmir. İnternet vasitəsi ilə özlərini reklam edən cütlük dönür media ulduzuna. Düşür dillərə.

**REKLAM AGENTİ?** Canlı yayımda qəhrəmana çevrilən Maranın internet ünvanları tezliklə dönür əsl reklam qalxanına. Daha o avtomobil şirkəti, dükanı qalmır Maranın səhifələrində öz reklamını yerləşdirməsin. Müştərilər qapıda sıraya düzülürlər ki, Mara Baqdasaryanın yol cərimələr öz ciblərindən ödəsinlər. Biri deyir mən ödəyəcəm, o biri deyir mən.

***

Ancaq bu sponsorlar da cərimələrin hamısını ödəyə bilmirlər. Cərimələrin 130-u (!) hələ də ödənilməmiş qalır. Avtoş Mara Baqdasaryanın bundan əlavə 342 inzibati cəriməsi var. 15 yaşında sükan arxasında oturmuş, cəmi beş-altı il sürücülük etmiş bir nəfər üçün inanın bu həddən artıq çoxdu.

Məhkəmə, özünün 12 iclası ilə yadda qalsa da, axırda bəraət çıxarır Mara haqqında. Onu cəmi 24 günlük inzibati həbs cəzasına layiq görüb Moskva küçələrində 595 saat zibilçi işləməyə məhkum edirlər. Əlavə, 183 min pul silirlər bankdakı hesablarından.

Xeyri olmur. Mara internetdə bütün Rusiyaya elan edir ki, bəs heç vaxt əlinə süpürgə götürməyəcək. Sükana öyrəşmiş əl süpürgəyə heç vaxt dəyməyəcək guya...

12 yanvar 2017-ci ildə məhkəmə qərarlarına məhəl qoymadığına görə Maranı tutub 15 gün təcridxanada saxlasalar da, nə olsun? Mara yenə avtoşluğundan qalmır Moskva küçələrində. Məhkəmə qərarları üzərinə bir lomba tüpürür.

***

Oxşar cinayətləri Almaniyada daha çox türklər edir. 2015-ci ildə misal üçün, Erkan F. və Firat M. adlı Türkiyə vətəndaşları Keln küçələrində avtoşluq edərkən idarəni itirib necə deyərlər "drayfa düşürlər". Qəza, 19 yaşlı bir zavallı vilosepetçi qızın ölümüylə yadda qalır.

Məhz bu qəzadan sonra Almaniya mətbuatı həyəcan siqnalı çalmağa başlayır. Deyir: "Stritreyserlər Almaniyanın başağrısına çevrilir tədricən. Dəyərlər şkalası tam fərqlidir, tam tərsinədir bu başdanxarablarda. Misal üçün, avtoşlar öz minik arabalarını daha çox sevib əzizləyirlər, nəinki özlərini".

Almaniyada avtoşluq qanunla yasaqdı. Bu ölkədəki avtoşlar, stritreyserlər start nöqtəsi kimi həmişə işıqforları seçərlər. Yaşıl işıq yandımı, vəssalam, basırlar qaza. Lakin 2016-cı ildə oxşar mənzərə Berlində faciə elə nəticələndiyi vaxt, vəziyyət qəlizləşir. Bəlli olur ki, stritreyserlər həm də qanunsuz reklam fəaliyyəti ilə məşğuldurlar. Arxalarında avtomobil nəhəglərinin mənfur, alçaq niyyətləri gizlənir.

***

Bizdə də bu sahədəki vəziyyət qənaətbəxş deyildir. Burda gizli reklam amili var, bunu inkar etmirəm. Ancaq bu hələlik özünüreklamdır. Zamanı gələndə o da bir gün gizli avtomobil reklamına çevriləcək.

**Əzrayılla bəhsə girmək, nə bilim, nə qədər düzgündü. Dəyərlər şkalası həqiqətən çox fərqlidir bu cür adəm övladlarında. Dəqiq desək, avtoşlarda.**

❑ **Həmid HERİSÇİ**



YENİ MÜSAVAT
N 165 (6779) 9 avqust 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**İşğalçı Ermənistanın Rusiyadan asılılığı ilbəil, hətta aybaay artmaqdadır. Son olaraq, Rusiya-Ermənistan ortaq hərbi qruplaşması haqda anlaşmanın əldə edilməsi (artıq qüvvəyə minib) əslinə qalsa, təcavüzkar ölkənin təhlükəsizliyini zahirən güclənirsə belə, düşmən ölkənin girov statusunu bir qədər də möhkəmləndirmiş oldu.**



# Sərksiyanın 29 illik Qarabağ nağılı - belə nağılın sonu göydən "alma" yox, raket vəd edir...

## İşğalçı ölkənin başçısı öz xalqına yalanlar yedizdirməkdə davam edir; **erməni kinorejissor:** "Ermənistan dövlətçiliyi hələ 1999-cu ilin 27-də məhv edilib..."




Bu isə öz növbəsində Ermənistanın xarici siyasətlə bağlı, Dağlıq Qarabağla bağlı olan-qalan manevr imkanlarının daha da məhdudlaşması deməkdir. İrəvanın xarici siyasət kursunun bütünlüklə Moskvanın ixtiyarına keçməsi deməkdir. Bu yandan da Rusiyaya qarşı Qərbin, ələlxüsus da ABŞ-ın qəbul etdiyi yeni sanksiyalar paketinin "küləyi" istər-istəməz İrəvanı da vuracaq. Hərçənd, Ermənistanda rəsmi səviyyədə bunu açıq büruzə verməkdən çəkinirlər.

***

Lakin işğalçı ölkənin Rusiya ilə birgə qaranlıq gələcəyini, çıxılmazda olduğunu anlayan və buna acı təəssüf hissi keçirən tanınmış ermənilər az deyil. Onlardan birinin mövqeyini təqdim edirik.

"Biz özümüzdə cəsarət tapıb hər şeyi öz adı ilə çağırmağı bacarmalıyıq: heç bir Rusiya-Ermənistan münasibətləri yoxdur. Çünki vaxtaşırı eşitdiyimiz rəsmi gündəm o qədər saxtadır ki, biz ona artıq öyrəşmişik". Musavat.com-un məlumatına görə, bu sözləri 1 in.am erməni saytına açıqlamasında erməni kinorejissor Tiqran Xemalyan deyib.

**Daha sonra o, rəsmi İrəvanın Moskva qarşısında miskin, təslimçi mövqeyinə, prezident Serj Sərkisyanın vaxtaşırı Moskvaya çağırılmasına işarə edərək bildirib:** "Bəli, yenə də biz Moskvaya səfərlər edirik, gülümsəyirik, bəzi fotoqrafiyalar hətta səmimi alınır. Ancaq bu, siyasi zorakılıqdır - hansının apogeyi ki, 3 sentyabr oldu".

3 sentyabr deyərkən erməni kinorejissor sözsüz ki, 2014-cü il sentyabrın 3-də S.Sərkisyanın Moskvada Putinin təzyiqi altında qəfildən Ermənistanın Avropa Birliyi ilə assosiasiya sazişini imzalamaqdan imtina edib Avrasiya İqtisadi Birliyinə qoşulduğunu bəyan etməsini nəzərdə tutur.

Xemalyanın sözlərinə görə, Ermənistan Respublikasının dövlətçiliyi 1999-cu ilin 27-də məhv edilib (Həmin tarixdə Ermənistan parlamenti güllələbaran edilib. O zaman Ermənistanın baş naziri, parlamentin spikeri və daha bir neçə deputat öldürülüb. Hadisənin üstü hələ də tam açılmamış qalır. Ancaq arxasında Rusiyanın durduğu haqda qətiləşmiş rəy var - red.): "Bu, KQB-nin planının tərkib hissəsi idi. Ermənistan indi bir çox siyasi texnologiyaların sınaqdan çıxarıldığı poliqondur. Polis texnologiyaları öncə əvvəlcə Ermənistanda tətbiq olunur, sonra isə Rusiyada və həmçinin başqa ölkələrdə həyata keçirilir. Yada salın, bizdəki 27 oktyabr faciəsindən iki ay sonra Ermənistandakı dövlət çevrilişinin arxasında duran adamlar Rusiyada çevriliş etdilər (prezident Boris Yeltsinin Vladimir Putini öz varisi elan edib istefaya getdiyi tarix nəzərdə tutulur - red.). Bu - eyni qəsdin tərkib hissəsidir. Dünya buna olduqca gec reaksiya verdi. ABŞ hələ indi ayılıb və nə baş verdiyini anlayıb. Biz isə bunu hələ o vaxt başa düşməli idik".

***

Məsələ də ondadır ki, dünya ayılsa da, erməni xalqı hələ ayılmayıb. Bu gün də o, kriminal Sərkisyan rejiminin, Xocalı hərbi canisinin Ermənistanı hara apardığını doğru-düzgün kəsdirə bilmir. Hələ də indiki hakimiyyətin "miatsum", "ikinci erməni dövləti" nağıllarına inanır. Belə nağılların sonunda isə göydən alma deyil, bir qayda olaraq, raketlər düşür. Yəni xoş sonluqla deyil, faciəvi bitir.

Əfsus ki, cinayətkar Sərkisyan rejimi Dağlıq Qarabağ məsələsində konstruktiv mövqe tutub sülh prosesinə kömək eləmək əvəzinə, təmas xəttindı təxribatçı və destruktiv fəaliyyətini davam etdirir. Bunu ötən gün erməni silahlı qüvvələrinin Tovuzu atəşə tutması nəticəsində bir uşağın yaralanması növbəti dəfə sübut edir.

"Ermənistan atəşkəsin pozulmasında ona görə maraqlıdır ki, danışıqları ləngidib, sülh prosesini arxa plana atmaq istəyir". Bunu Şərq.az-a cəbhə xəttində atəşkəsin intensiv şəkildə pozulmasının səbəblərini izah edərkən hərbi-siyasi icmalçı, ehtiyatda olan zabit Ramil Məmmədli deyib.

**O bildirib ki, Ermənistan status-kvonun saxlanmasından razıdır:** "Ona görə düşmən hər hansı dəyişikliyin tərəfdarı deyil. Ermənistan münaqişənin sülh yolu ilə həllinə razılıq verməlidir. İndiyədək dəfələrlə cəbhədə vəziyyəti gərginləşdirən düşmən münaqişənin sülh yolu ilə həllindən yayınıb. Sonuncu dəfə belə vəziyyət 2016-cı ilin yaz aylarında yaşandı və aprel döyüşləri də bunun kuliminasiya nöqtəsi oldu. Aprel döyüşlərindən sonra Ermənistan danışıqlar masasına oturdu və prosesə razılıq verdi. Lakin bir müddət sonra Ermənistan vəziyyətdən çıxış yolu kimi yenə təmas xəttində vəziyyətin gərginləşməsinə çalışdı. Hazırda da düşmənin təxribatları davam edir. Ermənistan Azərbaycanın diplomatik təzyiqlərinə tab gətirmir və uğursuzluğa düçar olacağını bildiyindən vəziyyəti gərginləşdirməyə çalışır".

**Düşmənin mülki əhalini də atəşə tutduğunu diqqətə çatdıran ekspertin sözlərinə görə, cəbhədə sabitlik yaranmadan Ermənistanla danışıqlar qeyri-mümkündür:** "Cəbhədə vəziyyətin bu formada davam etməsi sülh prosesinə ancaq xələl gətirə bilər. Nəticədə ölkə başçısının da qeyd etdiyi kimi, Azərbaycan yaranmış vəziyyətlə sona qədər razı olmayacaq. Nəticədə aprel hadisələri təkrarlana bilər və münaqişə yenidən alovlanar. Ermənistan anlamalıdır ki, Azərbaycan Silahlı Qüvvələri vəziyyətin bu şəkildə davam etməsini loyal qarşılamayacaq və əks tədbirlər görəcək. Bununla Ermənistan silahlı qüvvələri ağır zərbələrlə qarşılaşa bilər. Nəticədə düşmənin danışıqlardan yayınmaq üçün həyata keçirdiyi təxribatlar onun xeyrinə işləməyəcək".

***

Lakin bir mühüm detalı da nəzərdən qaçırmaq lazım deyil ki, düşmən bu kimi davranışlarında heç də sərbəst deyil və Kremldən birbaşa asılıdır. Özü də heç vaxt olmadığı qədər asılıdır.

"Ancaq əgər sülh danışıqları nəticə verməsə, onda Azərbaycan alternativ yollara əl atmağa məcbur olacaq". bu sözləri isə axar.az-a Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin gözlənilən görüşünü şərh edən **politoloq Tofiq Abbasov** deyib. Politoloq sözügedən görüşün baş tutacağını deyib.

"Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatının zirvə görüşü bu cür formatda olan danışıqlar üçün çox münasib şərait yaradır. Ermənistan adətən belə danışıqlardan qaçır və bütün kənar qüvvələrə guya Qarabağ probleminin həllində heç bir irəliləyişin əldə olunmayacağını və bu prosesdə Azərbaycanın özünü aqressiv bir tərəf kimi qələmə verdiyini təqdim etməyə çalışır. Ancaq Azərbaycan prezidenti Alxanlı kəndində baş verən faciədən sonra bildirdi ki, Ermənistan məhz dinc insanları güllələbaran etməklə vəziyyəti olduğundan da riskli edir. Lakin Azərbaycan buna imkan verməyəcək. Əgər sülh danışıqları nəticə verməsə, onda Azərbaycan alternativ yollara əl atmağa məcbur olacaq", - politoloq vurğulayıb.

**Politoloq hesab edir ki, İrəvan budəfəki görüşdə artıq öz mövqeyini açıq şəkildə ortaya qoymalıdır, çünki geriyə yol yoxdur:** "İrəvan həmişə danışıqlar əsnasında Azərbaycan tərəfinə bir söz deyir, proses bitəndən sonra İrəvanda, xarici meydanlarda isə tərs mütənasib fikirlər söyləyir, Azərbaycanı hədələyir. Bu baxımdan Ermənistanın öz mövqeyini və məqsədinin nədən ibarət olduğunu açıqlaması rəsmi Bakı üçün çox vacibdir. Zənnimcə, Ermənistanın manevr meydanı getdikcə daralır. İrəvan indiki mövqeyindən əl çəkməsə, Azərbaycanın haqlı olaraq deməyə sözü olacaq. Təbii ki, belə olan halda da Ali Baş Komandan öz növbəsində Azərbaycanın gələcək planları barədə kənar qüvvələri, fövqəl dövlətləri və Minsk Qrupu ölkələrinin başçılarını məlumatlandıracaq. Odur ki, bunun üçün gərək ilk növbədə Ermənistanın planları barədə məlumatlı olaq".

**Qeyd edək ki, sentyabrın 12-25-də BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahında BMT Baş Assambleyasının 72-ci sessiyası baş tutacaq. Sessiya çərçivəsində ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü gözlənilir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# ABŞ-ın Rusiyaya qarşı sanksiyaları: Bakı üçün böyük fürsət

## Qabil Hüseynli: "Azərbaycan Vaşinqtonun hərtərəfli dəstəyinə bel bağlaya bilər..."

**"ABŞ-ın Rusiyaya tətbiq etdiyi sanksiyaların dünya üçün də nəticələri olacaq". Bu sözləri Axar.az-a açıqlamasında sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. Politoloq ABŞ-la münasibəti olan bir çox ölkələrin də sanksiyalara qoşulmaq məcburiyyətində qalacağını bildirib.**

"Düzdür, Konqres bundan əvvəl Azərbaycanda neft və qaz hasilatı ilə məşğul olan 6-ya yaxın şirkətinin bu sanksiyalardan azad olunması barədə qərar çıxarmışdı. Ancaq indiki sanksiyalar genişləndirilmiş sanksiyalardır və dünya iqtisadiyyatına təsirsiz ötüşməyəcək. Çünki ABŞ-a məxsus şirkətlər bir neçə ölkədə eyni vaxtda fəaliyyət göstərir və dünya iqtisadiyyatının bir növ qan damarını təşkil edir. Buna görə də Konqres dünyada iqtisadi böhranın dərinləşməməsi üçün Rusiya, Şimali Koreya və İrandan başqa digər ölkələrdə fəaliyyət göstərən Amerika şirkətləri haqqında yeni bir qərar çıxarmalıdır. Əks təqdirdə, siyasi münasibətlər gərginləşə bilər. Zənnimcə, ABŞ Rusiya, Şimali Koreya və İrana qarşı çevrilmiş şirkətlərin fəaliyyətlərini məhdudlaşdıran sanksiyalara yaşıl işıq yandıracaq və yerdə qalan ölkələrə isə tətbiq etməyəcək. Çünki bu, Vaşinqtonun da maraqlarına ziddir", - politoloq qeyd edib.



**Onun sözlərinə görə, ABŞ-ın Rusiyanın neft və qazçıxarma sektoruna sanksiyalar tətbiq etməsi Azərbaycanın önəmi artacaq:** "Ümumiyyətlə, Azərbaycandakı Amerika şirkətləri sanksiyalar prosesinə qoşulmayacaq. Prezident İlham Əliyev İstanbulda ABŞ Dövlət katibi Reks Tillersonla görüşərkən Azərbaycandakı neft və qaz layihələrinə ABŞ-ın birmənalı dəstəyini ifadə etdi və bildirdi ki, Azərbaycan ABŞ üçün geosiyasi və digər cəhdlərinə görə strateji əhəmiyyətli ölkə olaraq qalır, bu səbəbdən də Bakı Vaşinqtonun hərtərəfli dəstəyinə bel bağlaya bilər. Bu, Vaşinqtonun sanksiyalara dair Bakıya verdiyi təminat idi. Üstəlik, ABŞ mətbuatında Rusiya neft və qazına alternativ olaraq göstərilən mənbələr sırasında ölkəmiz birinci yerdədir və qeyd olunur ki, bu ölkədəki sabitlik və iqtisadi sazişlərə əməletmə sahəsindəki çoxillik təcrübə ABŞ və Qərbin Azərbaycana etibarını daha da artırır. Bu hələ iqtisadi münasibətlər sahəsinə çevrilmiş dəstəkdir, ancaq heç də uzaq olmayan bir zamanda, yəni Azərbaycan qazı Avropa məkanına daxil olduqdan sonra sözün həqiqi mənasında Qərb dünyasında Azərbaycanın önəmi artacaq. İndiyə qədər xeyli Avropa dövlətləri, o cümlədən İsrail Azərbaycan neftini alırdı, eyni zamanda Türkiyə, Yunanıstan və İtaliyanın bir hissəsi bizim qazla təmin edilirdi. Ancaq yaxın gələcəkdə buraya Serbiya, Albaniya, İspaniya və bir sıra ölkələr də qoşula bilər".

**Q.Hüseynlinin fikrincə, Azərbaycanın Qərbin enerji təchizatında önəmli oynaması ölkəmizə siyasi dəstəyin artırılmasına gətirib çıxaracaq**: "Bu gün Qərbin ciddi siyasi dəstəyinin Azərbaycan üçün çox böyük əhəmiyyəti var. Çünki Qarabağ problemi həll olunmayıb. Problemin siyasi dəyərləndirilməsində hələ də ikili standartlara və xristian təəssübkeşliyinə rast gəlirik. Burada erməni lobbisinin oynadığı rol böyükdür. İndi Azərbaycan Qərbi neft və təbii qazla təchiz etməyə başladıqca ölkəmizin siyasi önəmi artacaq. Bu o anlama gəlir ki, neft və qaz ətrafında fəaliyyət göstərən xarici şirkətlər Azərbaycan üçün siyasi lobbiçilik funksiyasını yerinə yetirməyə başlayacaqlar. Bu prosesdə Ermənistanın Azərbaycana təcavüzünün bütün anatomiyasını açmaq mümkün olacaq. Nəticədə BMT qətnamələrinin yerinə yetirilməsi üçün əlverişli ictimai-siyasi mühit formalaşacaq. Rəsmi Bakı isə mərhələ-mərhələ bu siyasi mühitdən yararlanacaq və ermənilərin Qarabağla bağlı bütün siyasi stereotiplərinin alt-üst olmasına nail olacaq. Bu fonda həm Azərbaycanın xarici siyasəti ciddi və hücumçu xarakterdə olmalı, həm də diaspor təşkilatları Avropa ölkələrində, eləcədə Amerikada siyasi maarifləndirmə işinin qurulmasına ciddi töhfə verməlidir. Güman edirəm ki, Rusiyaya tətbiq edilən sanksiyalar Ermənistanın bir nömrəli tərəfdarlarının mövqeyinin daralmasına, Azərbaycanın beynəlxalq miqyasda mövqeyinin genişlənməsinə gətirib çıxaracaq ki, bu da Dağlıq Qarabağ probleminin ədalətli həllinə əhəmiyyətli töhfə verə bilər".

# Ruhani yeni hökumətə qadınları buraxmadı

**İran Prezidenti Həsən Ruhani yeni kabinet üzvlərinin adlarının siyahısını açıqlayıb. Axar.az xəbər verir ki, may ayında keçirilən prezident seçkilərində qalib olan Həsən Ruhaninin yeni kabineti yalnız kişilərdən ibarətdir.**

Həsən Ruhaninin qadınları idarəetmədə görmək istəməməsi, kabinetin bütün üzvlərinin kişilərdən ibarət olması islahatçılar arasında narazılığa səbəb olub.



Həsən Ruhani

# Gürcüstanı inkişaf yoluna çıxaran Saakaşviliyə ölkəsi niyə sahib çıxmır?

## Politoloq: "Onun öz xalqı tərəfindən əsl qiymətini alması üçün yəqin ki, nəsil dəyişikliyinə ehtiyac var..."

**Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili ətrafında qalmaqallar davam edir. Bir zamanlar Gürcüstanı demokratik inkişaf yoluna çıxarmış Saakaşvili bu gün faktiki olaraq ölkəsiz qalıb.**

ABŞ-ın məşhur "The Daily Beast" qəzeti Saakaşvilinin indiki halını aşağıdakı kimi şərh edib: "Bugünkü Gürcüstan hökuməti Saakaşviliyə Putin qədər nifrət edir. 2015-ci ildə onu Gürcüstandan qovan zaman Saakaşvili ölkə vətəndaşlığından imtina etdi və Pyotr Poroşenkonun onu strateji və tənəzzüldə olan Odessa vilayətinin qubernatoru təyin etməsindən 1 gün əvvəl gürcü pasportu ilə vidalaşaraq Ukrayna vətəndaşlığını qəbul etdi. Donkixotluğa meylli Saakaşvili böyük islahat planları ilə öncə ukraynalı oliqarxlara, daha sonra isə prezident Poroşenkoya qarşı çıxdı. Ola bilsin ki, bu dəfə Saakaşvili kompromissə getməyəcəyini qətiləşdirmişdi. Nəticəsindən asılı olmayaraq, o məğlub oldu və müxalifətə qoşuldu. Odessa isə əvvəlki kimi rüşvətxor şəhər olaraq qaldı", - deyə qəzet yazır.



Hazırda Ukrayna vətəndaşlığından da məhrum edilmiş Saakaşvilinin Polşada olduğu bildirilir. Onu da qeyd edək ki, Gürcüstanın Baş Prokurorluğu sabiq prezident Mixail Saakaşvili ilə bağlı Polşa tərəfinə müraciət ünvanlayıb. APA-nın xəbərinə görə, müraciətə səbəb M. Saakaşvilinin Polşada olması ilə bağlı yayılmış məlumatlardır. "Baş Prokurorluq Polşanın səlahiyyətli orqanlarına müraciət edib. Prokurorluq qanunla nəzərdə tutulmuş müvafiq prosedurlara başlayıb" - Baş Prokurorluqdan bildirilib.

Bəs nədən Gürcüstan onu demokratik inkişaf yoluna çıxaran bir siyasətçiyə sahib çıxmır?

**Politoloq Şahin Cəfərli** "Yeni Müsavat"a mövzu ilə bağlı bildirdi ki, Gürcüstan dövlətinin ölkənin sabiq prezidenti Mixail Saakaşviliyə sahib çıxmamasının səbəbi onun düşmənlərinin hələ də hakimiyyətdə olması ilə bağlıdır: "Unutmaq olmaz ki, "Gürcü Arzusu" Saakaşviliyə qarşı düşmənçilik üzərində iqtidara gələn siyasi qüvvədir. Milyarder Bidzina İvanişvilinin siyasətə qoşulmasının bir səbəbi var idi: Saakaşvilinin hakimiyyətinə son qoymaq. O, xarizmatik lideri olmayan dağınıq müxalifəti bu məqsəd ətrafında birləşdirərək onlara liderlik etmişdi. "Gürcü Arzusu" koalisiyasının ideoloji bazasını Saakaşviliyə qarşı düşmənçilik və onu hakimiyyətdən salmaq istəyi təşkil edirdi. Eyni zamanda qeyd etmək lazımdır ki, Saakaşvilinin iqtidarına son qoymaq həmin vaxt gürcü cəmiyyətinin əksər hissəsinin də arzusuna çevrilmişdi. Yəni, İvanişvilinin formalaşdırdığı koalisiya bu arzunun ifadəçisi qismində meydana çıxdı və böyük üstünlüklə seçkidə qalib gəldi. İqtidar dəyişikliyi o dövr üçün sosial sifariş idi".

**Politoloqun sözlərinə görə, gürcülərin əksəriyyəti Saakaşvilini sevmirdi. Bunun sosial, siyasi və psixoloji səbəbləri var**: "Əvvəla, Saakaşvili iqtidara gəldikdən sonra radikal islahatlar apardı. Hüquq-mühafizə orqanlarından - polis, prokurorluq, məhkəmə sistemindən, eləcə də dövlət aparatından on minlərlə insan çıxarıldı, onların bir çoxu həbs olundu. Ölkədə at oynadan kriminal avtoritetlər və onların çevrələri zərərsizləşdirildi. Sabiq kommunistlərin demək olar ki, hamısı işdən qovuldu. Bir sözlə, köhnə kriminal-korrupsiya düzəni darmadağın edildi. Bunun nəticəsində ölkədə iş, dolanışıq yerini itirənlərdən, həbs olunanlardan, onların ailə üzvlərindən, yaxınlarından - yəni əhalinin köhnə düzəndən faydalanan hissəsindən ibarət böyük narazılar ordusu yarandı. Təsadüfi deyil ki, Saakaşvilinin dövründə müxalifətin kifayət qədər kütləvi olan etiraz aksiyaları keçirilirdi. Tiflisdə təşkil edilmiş 7 noyabr 2007-ci il və 26 may 2011-ci il aksiyalarını xüsusi qeyd etmək olar. Hər iki aksiya kifayət qədər sərt şəkildə dağıdılmış və ölənlər, yaralananlar olmuşdu. Bu da öz növbəsində Saakaşvilidən narazılığı artıran əlavə amil idi. Başqa bir narazı təbəqə də var idi ki, onlar sadəcə olaraq, Saakaşvilinin 9 illik hakimiyyətindən bezmişdilər və dəyişiklik, yenilik istəyirdilər. Digər tərəfdən, 2008-ci ilin avqust müharibəsi, xeyli sayda əsgərin ölməsi və yaralanması, ərazi itkisi, yeni qaçqın dalğası da Saakaşvilinin nüfuzuna zərbə vuran hadisələr idi. Bütün bu amillər cəmiyyətdə narazılıq dalğasının böyüməsinə, dəyişiklik istəyinin güclənməsinə gətirib çıxardı və nəticədə Saakaşvilinin partiyası seçkidə məğlub oldu".

**Ş.Cəfərli xatırladır ki, "Gürcü Arzusu" hakimiyyətə gəldikdən sonra öz vədinə uyğun olaraq keçmiş hakimiyyətin mənsublarını təqib etməyə başlayıb və Saakaşviliyə qarşı da cinayət işi açılıb:** "Hazırda həmin cinayət işinin istintaqı davam edir. Yəni, hakimiyyət dəyişikliyinin baş verdiyi 2012-ci illə müqayisədə Gürcüstanda çox şey dəyişməyib. Üstəlik, Saakaşvilinin partiyası son seçkidə uduzduqdan sonra parçalanıb, onun cəmiyyətdə yüksək reytinqindən danışmaq mümkün deyil. Saakaşvilinin reabilitasiyası və keçmiş dövlət başçısı qismində ona imtiyazların verilməsi fikrinin bu gün gürcü cəmiyyətində o qədər də geniş dəstəyi yoxdur. Şübhəsiz ki, Saakaşvilinin xidmətlərini qiymətləndirənlər, ona lazımi ehtiramın göstərilməsini istəyənlər də var, amma onların rəyi həlledici ictimai fikirdə üstünlük təşkil etmir. Saakaşvilinin öz xalqı tərəfindən əsl qiymətini alması üçün yəqin ki, nəsil dəyişikliyinə ehtiyac var. Mən əminəm ki, Saakaşvilinin adı Gürcüstan tarixində müsbət işarə ilə qalacaq".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 165 (6779) 9 avqust 2017

# Nazirliyin müğənnilərlə bağlı bəyanatına sənətçilərdən reaksiya gəldi

## "Niyə ölkədən çıxışa qadağa qoyulsun ki?.."

**Məlum olduğu kimi, Vergilər Nazirliyi şou-biznes nümayəndələrinə bir daha xəbərdarlıq edərək bildirib ki, borcu olan sənətçilərin ölkədən çıxışına qadağa qoyula bilər.**



Nazirlik öz bəyanatında qeyd edib ki, Vergi Məcəlləsinin 23.1.15-3-cü maddəsinə əsasən vergi ödəyicisi vergi öhdəliyini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, vergi borclarının ödənilməsini təmin etmək üsulu kimi vergi ödəyicisi olan fiziki şəxsin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün vergi orqanı məhkəməyə müraciət etmək hüququna malikdir.

Miqrasiya Məcəlləsinin qanunlarına əsasən də məhkəmə qərarı əsasında verilmiş icra sənədinin könüllü icra üçün müəyyən olunmuş vaxtda üzrsüz səbəbdən icra edilməməsinə görə vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda - məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək şəxs ölkədən getmək hüququndan məhrum ola bilər.

Xatırladaq ki, ötən il vergi borcları ilə bağlı nazirlik tərəfindən sənətçilərə dəfələrlə xəbərdarlıqlar edilmişdi. Buna baxmayaraq çoxlu sayda sənətçinin hələ də vergi borcu olduğundan bəzilərinin haqqında ölkədən çıxışına qadağa qoyulmuşdu. Onların arasında əməkdar artistlər Abbas Bağırov, Aygün Bəylər, müğənni Ramal İsrafilov, bəstəkar Tural Bayraməliyev və digərləri var idi.

Maraqlıdır, hazırda hansı sənətçinin vergi borcu var? Sənətçilər ölkədən çıxışına qadağa qoyulması məsələsinə necə yanaşır? Mövzu ilə əlaqədar bir neçə sənətçinin mövqeyini öyrənməyə çalışdıq.

**Xalıq artistləri Səməd Səmədov və Mətanət İsgəndərli** hazırda heç bir vergi borcu olmadığını bildirdi.

**Müğənni Nadir Qafarzadə** isə sualımıza bu cür cavab verdi: "Yəqin ki, Vergilər Nazirliyi sənətçilərin köhnə borcları ilə əlaqədar bəyanat yayıb. Çünki indiki borc ola bilməz. İndi bütün sahələrdə olduğu kimi, toy biznesində də qazanc çox aşağı enib. Son devalvasiyadan sonra, yəni dolların 1.7 manat olması bizi müğənnilərin də qazancına təsir etdi. Yəni axır vaxtlar mən artıq yeni mahnılar yazdırmıram, çünki bunların hamısı xərc deməkdir. Əgər qazanc yoxdursa, biz hardan xərcləyək? Demirəm ki, ac-susuzuq, amma yenə də köhnədən əldə etdiyimiz qazancları yeyir, xərcləyirik. Yenə də şükür Allaha, hərdən ayda 2-3 toy olur. Lakin zamanında ayda 10-15 toy var idisə, təsəvvür edin ki, bu say 3-ə enib".

**Sənətçi Vergilər Nazirliyi ilə heç vaxt problem yaşamadığını dedi:** "2003-cü ildən vergi ödəyicisiyəm. Bu haqda qəbzlərim də var, hazırda da heç bir problemim yoxdur, vergini vaxtında ödəyirəm. Dövlətin qəbul etdiyi qanundan heç kim yan qaça bilməz, bunu hamımız bilirik. Çünki bütün ölkələrdə bu belədir. Onsuz da sənətçilər gec-tez bu vergini ödəyəcək, sadəcə vaxtında ödəməyəndə üstünə faiz gəlir. Zamanında ödəsələr, onlara xeyir olar. Yoxsa faizlər böyüdükcə onlar ödəyə bilməyəcək, hətta barələrində həbs də, ölkədən çıxışlarına qadağa da qoyula bilər. Bir faktı qeyd edim, Türkiyədə kiminsə dövlətə 1 lirə belə borcu olanda, onun mülkünə əl qoyulur. Qanun hər kəs üçün qanundur. Ona görə də tövsiyə edərdim ki, vergilərini vaxtında versinlər".

**Müğənni Şəbnəm Tovuzlu** (Əsədova) vergilərin hər kəsə aid olduğunu bildirdi: "Hər kəs bu borcu verməlidir. Mən neçə ildir ki, vergidən yayınmıram. Həmişə vergimi vaxtlı-vaxtında ödəyir, verirəm. Sadəcə olaraq bir il fəaliyyətimi analıq məzuniyyətimə görə dayandırmışdım. Son iki aydır ki, yenidən fəaliyyətimə davam edirəm. Dünənə qədər yalnız 95 manat vergi borcum var idi, onu da ödədim. Yəni mənim vergi ilə bağlı heç bir problemim yoxdur, ola da bilməz".

**Ş.Tovuzlu sənətçilərin ölkə çıxışına qadağa qoyulması məsələsinə isə bu cür mövqe bildirdi:** "Ola bilsin ki, sənətçilər ölkə xaricinə təkcə toylara görə deyil, digər məsələlər ilə bağlı və yaxud istirahət üçün gedir. O demək deyil ki, müğənni ölkədən gedirsə məhz qazanc dalınca gedir. Şəxsən mən ildə 2-3 dəfə yalnız Moskvaya toya gedə bilərəm. Heç toy olmasın, bəlkə istirahətə gedirik, niyə ölkədən çıxışa qadağa qoyulsun ki? Sadəcə müğənnilərə başa salınmalıdır ki, bəli, sən vergi borcunu ödəməlisən. Mən ayda 5-10 toya gedən müğənniyəm və hər zaman vergimi ödəyirəm".

**Tamada Nazilə Səfərli** də qeyd etdi ki, hər kəs qanunlara tabe olmalıdır: "Bu ölkədə yaşayıb, qazanırıqsa, deməli, vergini də ödəməliyik. Qanunlara hər kəs tabe olmalıdır. Bəli, sənətçilər də vətəndaşdır. Qanunu pozan vətəndaş da ölkədən çıxa bilməz. Əslində vergiləri verməklə dövlətə öz sevgimizi bildirməliyik".

❑ **X.GƏRAY**

# Dietoloqdan arıqlamaq istəyənlərə qiymətli tövsiyə

## "Mövsümə deyil, artıq çəkinin səbəblərinə uyğun arıqlamaq lazımdır..."

**Yay mövsümündə əksəriyyət insanlar qüsursuz görünmək üçün artıq çəkidən azad olmağa çalışır. Və bir çoxları bu istək ilə ya pəhrizlərə, ya da idman zallarına üz tutur.**



Lakin bəzi ekspertlər bildirir ki, yayda çox məşq etmək bəzən təhlükəli olur. Çünki isti havada idman edərkən bədənin hərarəti daha da artır, bu da insanları yorur və bəzən ürəyə ziyan verə bilir. Bununla belə dietoloqlar yay fəslini heç bir məşq etmədən, pəhriz saxlamadan artıq çəkidən azad olmaq üçün ən yaxşı fəsil adlandırırlar. Çünki bu fəsildə çox çeşiddə meyvə, tərəvəz yeməklərdən istifadə etmək olur. Onların qida dəyəri yüksək olsa da, kaloriləri çox aşağıdır.

Daha bir nüans qızmar Günəş şüaları ilə bağlıdır. Məlumata görə, Günəş şüaları çox olduqca insanlarda xoşbəxtlik hormonları daha çox ifraz olunur və onların yeməyə həvəsi, iştahası azalmış olur. Yəni, qış qayına nisbətən yay aylarında arıqlamaq daha realdır. Qışda isə insanlar daha çox depressiya halında olur və bu zaman yemək yeməyə, xüsusən də xəmir xörəklərinə üstünlük verirlər.

**Dietoloq Tutu Zeynalova** mövzuya bu cür şərh bildirdi: "Yay və ya qış, fərqi yoxdur, hər zaman formada olmaq lazımdır. Yayın öz, qışın da öz üstünlükləri var. Doğrudur, yayda qışa nisbət daha hərəkətli oluruq, Günəş şüaları çox olur, depressiya halları az olur. Ümumiyyətlə, mövsümə deyil, artıq çəkinin səbəblərinə uyğun arıqlamaq lazımdır. Bu məsələ daha aktualdır, nəinki mövsümə uyğun arıqlamaq. Yayda insanlar adətən insanlar tətilə çıxır, şüuraltı olaraq düşünür ki, bütün ili işləyib və özünü mükafatlandırmaq üçün yaxşı istirahət etməlidir və çox yeməyə başlayır. Tətildə gec oyanır, səhər yeməkləri gecikir, bu da kökəlməyə səbəb olur. Həmçinin dondurma mövsümüdür, çox yedikdə bu da kökəlmə verir. Qeyd edim ki, bəzən az kalorili qidalar belə, məsələn, qarpızı da çox yedikdə kökəlmə baş verir. Qışda isə gecə daha uzun olur, günlər qısalır, bəzən xəmir xörəklərinə çox üstünlük verilir, bu da kökləmə verir və arıqlamaq çətin olur. Lakin elə adam var ki, nəinki qışda, heç yaya mövsümündə də arıqlaya bilmir".

**Ekspertlər qeyd edir ki, arıqlamaq istəyən şəxslər mütləq şəkildə dietoloqlara, pəhriz həkimlərinə müraciət etməlidirlər. Adətən dietoloqlar arıqlamaq istəyən şəxsləri müayinədən keçirdikdən sonra onun fiziki göstəricilərinə əsasən rasion tərtib edir və insanlar həmin rasion üzrə çəki atmağa başlayır. Həkim məsləhəti olmadan müxtəlif arıqlayıcı vasitələrdən istifadə etmək, ac qalmaq, immuniteti zəifllətmək bir çox hallarda müxtəlif xəstəliklərin yaranmasına hətta ölümə səbəb ola bilər.**

❑ **XALİDƏ**



# "Kaş heç prezident olmayaydım..." - siyasətdə Tramp sindromu

## Milyardları olmaq hələ güclü prezident olmaq demək deyil; bir nömrəli yerə iddialılar hansı keyfiyyətləri daşımalıdırlar?

**Dünya prezidentlərinin şəxsi keyfiyyətləri, seçdikləri peşələr, keçdikləri həyat yolu daim insanların diqqətində olur. İstər mənfi, istərsə də, müsbət keyfiyyətləri ilə tarixə keçən prezidentlər elə hər iki tərəfdən müzakirə obyektinə çevrilirlər. Amerikada heç kəsin gözləmədiyi halda biznesmen Donald Trampın qələbəsindən sonra bu məsələ daha da aktuallaşıb.**

Bəlkə də gözlənildiyindən fərqli prezident olsaydı, bu qədər müzakirə obyekti olmazdı. Amma o biznesmen düşüncəsi ilə prezidentlik kürsüsündə oturdu və bu düşüncə ilə də ölkəni idarə etməyə başladı. Sonunda isə...

O, biznesmen kimi indikindən daha nüfuzlu şəxs idi. Getdikcə də Ağ Evin sahibi nüfuzunu sıfıra endirir. Bütün bunlar hər kəs də onunla bağlı daha çox bu fikri formalaşdırır. Külli miqdarda sərvətə sahib olan bu şəxsin prezidentlik nəyinə gərək idi?

Trampın fonunda prezidentliyə iddialı şəxsin hansı keyfiyyətlərinin olması, daha çox hansı peşənin daşıyıcılarının prezident olmasının önəmi müzakirə edilir.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli** prezidentlərin hansı xüsusiyyətlərə malik olmalarının vacibliyi barədə bunları düşünür: "Tramp səriştəsiz adam kimi özünü büruzə verdi. Onun səviyyəsi, intellekti makler səviyyəsindən o qədər də yüksək deyil. Təsəvvür edin ki, hələ prezidentlik komandasını formalaşdıra bilməyib. Bütün bunlar da onun prezidentlik keyfiyyətlərinə malik olmadığını göstərir. Nəticədə də vitse-prezident Maykl Pensin prezident ola biləcəyi barədə fikirlər yaranıb. Tramp alverçidir. Mülk, torpaq və başqa sahələrin alqı-satqısı ilə məşğul olan biznesmendir. Hansı peşə sahiblərinin prezident olmaları barədə konkret fikir söyləmək çox çətindir. Keçmişdə kralların yanında politoloq, tarixçilər və bu tipli peşə sahibləri ən nüfuzlu, hörmətli şəxslər hesab olunurdular. İndiki vaxtda praktiki səviyyəsi yüksək olan, siyasi duyum qabiliyyəti yüksək olan, geniş dünyagörüşə malik şəxslər ölkə rəhbərliyinə iddialı ola bilərlər. Belə şəxslərin öz sahələrindəki intellektual səviyyələri, siyasi proseslərdən çıxardıqları analiz qabiliyyətləri, siyasi proseslərdən çıxardıqları əsasında təqdim etdikləri tövsiyələrə malik olmaları çox vacibdir. Adətən bu cür şəxslər hərtərəfli olur, mükəmməl təhsil alır, əxlaq və tərbiyələri də yerində olur. Əgər onlar prezidentliyə iddialıdırlarsa, vətənpərvər keyfiyyətə mütləq malik olmalıdırlar. O ölkəyə ki, rəhbərlik edəcəklər, həmin ölkəni dərin məhəbbətlə sevməyi bacarmalı, onları kürsüdə əyləşdirən xalqa dərin məhəbbətlə rəhbərlik etməlidirlər. Xalqın mənafeyi şəxsi maraqlardan üstün olmalıdır. Bir sözlə, deyirlər ki, siyasət hiyləgərlikdir. Amma düşünürəm ki, siyasətdə ən gözəl olanı düzlük və təmizlikdir. Bu və ya digər qeyd etdiyim keyfiyyətlərə maliksənsə, prezident olmaq üçün yetərlidir.

Məsələn, Ronald Reyqan aktyor olub. Amma buna baxmayaraq, o, Amerikanın müasir tarixində dərin izlər buraxmış bir şəxsdir. Bəlkə də onun siyasi intellektuallığı yetərincə deyildi. Lakin onun peşəkar olması, Amerikanı dərindən sevməsi hər şeyi üstələyir, nöqsanlarını görməyə imkan vermirdi. Trampın hakimiyyətdə olduğu müddətdə hələ yadda qalan bir hərəkəti, tarixi sözləri yoxdur. Amma Reyqan hakimiyyətə gələndə "SSRİ şər yuvasıdır" sözünü dedi və az keçməmiş o imperiya dağıldı. Yəni demək istəyirəm ki, prezidentin əsas keyfiyyətlərindən biri də qətiyyətli olmaqdır. Siyasətçinin sözlərində inandırıcılıq olmalıdır.

Siyasətçi insanlara quru vədlər verməməli, verdiyi vədlərin də arxasında dayanmağı bacarmalıdır. Prezident də təmsil etdiyi xalqı bir çağırışı ilə səfərbər etmək gücündə və təsirində olmalıdır. Fransanın yeni prezidenti Emmanuel Makron pianoçu olub, sonralar maliyyə naziri oldu. İndi də Fransa kimi bir nəhəng ölkənin rəhbəri seçilib. Yəni peşədən çox yuxarıda sadaladığım keyfiyyətlərə prezidentlik iddiasında olanlar adekvat cavab verməlidirlər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 165 (6779) 9 avqust 2017

# Qızmar istilərdə iş saatı dəyişdirilməlidirmi...

**Nazirlik: "Temperatur + 41 dərəcədən çox olduğu hallarda açıq havada və sərinləşdirici qurğular olmayan yerlərdə bütün növ işlərin görülməsi dayandırılmalıdır"**

**Azərbaycanda yaxın 3 gün ərzində anormal isti hava şəraitinin davam edəcəyi gözlənilir. Bu da əksər insanlar üçün çox əlverişsizdir. Gündüz saatlarında uzun müddət günəş altında qalmaq risklidir. Ancaq elə insanlar var ki, onlar havanın temperaturunun neçə dərəcə olmasından asılı olmayaraq açıq havada işləmək məcburiyyətində qalır və ya məcbur edilir.**



İsti hava şəraitində çalışanlar arasında daha çox ustalara, fəhlələrə rast gəlinir. Bir müddət öncə havanın tempraturunun + 41 dərəcəyə çatmamış, 39-40 dərəcədə olarkən fasiləli iş rejiminin tətbiqi istənilib və bununla bağlı müzakirələr getsə də, bir nəticəsi olmadı. Ümumiyyətlə hava şəraiti ilə əlaqədar iş rejiminin dəyişdirilməsi praktikası bir sıra Avropa ölkələrində də mövcuddur. Məsələn, Yunanıstan, Bolqarıstan, Rumıniya, İtaliya, İspaniyada, hətta bəzi ərəb ölkələrində və iqlimi isti olan digər dövlətlərdə insanların sağlamlığını qorumaq üçün yay aylarında gündəlik iş qrafiki, iş rejimi dəyişdirilir. Yayda həmin ölkələrdə iş saatı səhər saat 07:00-da başlayır, gündüz saat 11:00-dan 17:00-dək böyük fasilə verilir, fasilədən sonra isə iş rejimi axşam saat 22:00-dək davam edir.

Qeyd edək ki, anormal istilərlə bağlı Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi də xəbərdarlıq edib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev bildirib ki, Əmək Məcəlləsinin 233-cü maddəsinə uyğun olaraq, havanın temperaturu + 41 dərəcədən çox olduğu hallarda açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır: "Belə hallarda işçilərin həyat və sağlamlığının mühafizəsi məqsədi ilə onlara sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilməli və işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında fasilənin sayı, müddəti müəyyən olunmalı, eyni zamanda iş zamanı verilmiş fasilələr iş vaxtına daxil edilməlidir. Həmin fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilməlidir. İş dayandırıldıqda boşdayanma vaxtının haqqının işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilməsi təmin edilməlidir".

**E.Babayev qeyd edib ki, havanın temperaturunun müsbət 41 dərəcə selsidən çox olduğu hallarda, açıq havada işlən vətəndaşların həyat və sağlamlığının qorunması əsas şərtdir:** "Qeyd olunan hava şəraiti müşahidə olunana günlərdə, açıq havada işləməyə məcbur edilən şəxslər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edə bilər. Hər bir vətəndaş nazirliyin 142 - "Çağrı mərkəzi"nə şikayətini deyə bilər. "Çağrı mərkəzi" canlı rejimdə həftənin iş günləri saat 9.00-dan 18.00-dək vətəndaşların xidmətindədir".

**Bu günlərdə Günəş şüası altında uzun müddət qalmaq sizin həyatınıza bais ola bilər.** Çünki günvurma çox təhlükəli haldır. Əgər vaxtında müdaxilə edilməsə, ölümlə nəticələnə, bəzi hallarda isə sinir sistemində qalıcı fəsadlara səbəb ola bilər. Günvurmanın əlamətləri şiddətli baş ağrısı, ürək bulantısı, qusma və yüksək temperaturda özünü göstərir. Ümumiyyətlə günvurma ağırlıq dərəcəsinə görə 3 yerə ayrılır: yüngül, orta və ağır dərəcə. Yüngül dərəcəli günvurma ürəkbulanma, göz bəbəklərinin genişlənməsi, təngnəfəslik, nəbzin döyünməsinin sürətlənməsi, baş ağrıları ilə müşahidə edilir. Orta dərəcəli gün vurma kəskin baş ağrıları, qaytarma-qusma, qulağın batması, son dərəcə halsızlıq, bədəndə temperaturun artması, huş itirmə halları ilə müşahidə olunur. Ağır dərəcə günvurma hətta ölümlə nəticələnə bilər. Kəskin halsızlıq, temperaturun 40 dərəcədən yuxarı qalxması, nəcis və sidiyin qeyri-iradi şəkildə xaric olması, qarabasmaların gözə görünməsi, koma ilə müşahidə olunur. Əgər bu hallarla qarşılaşsanız gün vuran adama ilkin təcili yardım etməlisiniz. Öncə zərərçəkənin dar geyimlərini çıxarmalı, qasıq, qoltuqaltı, baş və boyun nahiyələrinə soyuq yaş kompres və ya buz torbası qoyulmalıdır. Hərarət çox yüksələrsə, bədəni nəm dəsmalla sarımaq, havanın ventilyasiyasını təmin etmək lazımdır. Xəstəni sərinlətməyin ən yaxşı yolu soyuq su vannasıdır. Dərini spirtlə silmək olmaz, spirt məsamələri daraldaraq istiliyin xaric olmasına mane olur. Əgər xəstə özündə deyilsə, naşatır spirtini tənzifə vuraraq iynətməli və ya süni nəfəs verməlisiniz. Tərlə birlikdə bədənin su və duz itirməsi "isti yorğunluğu" adlanan halsızlıqla müşahidə edilən sindroma səbəb ola bilər. Əgər bu vəziyyət nəzarətdə saxlanmasa, bədənin temperatur tənzimləmə sistemi pozulur. Günvurmadan qorunmaq üçün günəşli havada baş örtüyü olmadan gəzmək məsləhət görülmür. Baş örtüyü də açıq rəngli materialdan olmalıdır ki, günəş şüasını az qəbul etsin. İsti havada geyim də enli, açıq rəngli, yüngül, pambıq və ya kətan parçadan olmalıdır. Günvurma zamanı qəflətən tənəffüsün dayanması və yaxud miokard infarktı inkişaf edə bilər, reanimasiya tədbirlərinə hazır olmaq gərəkdir.

**Qeyd edək ki, isti vurmada da ilkin tibbi yardım gün vurmada olduğu kimidir. İsti vurma bir çox hallarda qəflətən meydana çıxır: ilk baxışda kifayət qədər sağlam görünən insan birdən birə əzgin olur, onun temperaturu 40 dərəcəyə yüksəlir, bəzi hallarda qıcolmalar, sayıqlama və qarabasmalar qeyd edilir. Xəstənin sifəti əvvəlcə qızarır, sonra isə birdən birə avazıyır. Nəbz sürətlənir, çətinliklə əllənir; tənəffüs səthi olur, bəzən qusma da qeyd edilir. Zərərçəkənin vəziyyəti ağırlaşarsa dərhal təcili yardım çağırın və ya ilk tibbi yardım göstərdikdən sonra onu mümkün qədər tez bir zamanda yaxınlıqdakı tibb müəssisəsinə çatdırın.**

❑ **Günel MANAFLI**

# Bakının "hamam" kimi avtobusları - problemdən çıxış yolu varmı...

**Ekspert:** "Artıq bu ildən etibarən sərnişindaşıma ilə məşğul olan şirkətlərin qarşısında lisenziya verilən zaman kondisionerlərin olması tələbi də birmənalı şəkildə qoyulur"

**Mais Ağayev:** "Hazırda şəhərdə 2100 avtobus var, onlardan 500-də kondisioner var"

**Bakıda havaların isti keçdiyi günlərdə insanları daha çox narahat edən məsələlərdən də biri ictimai nəqliyyatlardakı havasızlıqdır. Gün ərzində işə gələn, işdən yorulub evinə yollanan Bakı sakinləri daha çox avtobuslarda havalandırma və kondisioner sisteminin olmamasından şikayətlənirlər.**



Doğrudan da yayın ən isti vaxtında kondisionersiz, kiçik pəncərələri olan dəmir avtobuslarda yol getmək, xeyli əzablı və çətin məsələdir. İllərdir ki, bu məsələ gündəmə gətirilsə də, hələ ki, tam olaraq həllini tapmayıb. Yalnız son illər əsasən "BakuBus" MMC tərəfindən paytaxt küçələrinə kondisionerli avtobuslar buraxılıb ki, onların da sayı azdır.

Bakı kəndlərinə və paytaxt ətrafına qəsəbələrə işləyən avtobuslarda vəziyyət daha acınacaqlıdır. Belə ki, pik saatlarda insanların çox olması səbəbindən bu avtobuslardan hələ normal hava şəraitində istifadə etmək xeyli dərəcədə çətin olur. Havalar isti keçdikdə isə vəziyyət bir qədər də qəlizləşir. Kondisionersiz avtobusların əksəriyyəti köhnə avtobuslardır. Ona görə də bu avtobuslarda digər texniki avadanlıqlar da normal vəziyyətdə deyil. Məsələn, bəzi avtobusların oturacaq, tutacaqlarının sınıq olduğunu müşahidə edirik.

**Nəqliyyat üzrə ekspert Azər Allahverənov** mövzu ilə əlaqədar "Yeni Müsavat"a bildirib ki, ictimai nəqliyyat sektorunda sərnişin daşıma ilə məşğul olan şirkətlər meydana gəldiyində vəziyyət başqa idi:

"O zaman belə bir qadağa yox idi ki, kondisioneri olmayan avtobuslar istismar olunmasın. Yəni bir növ bu məsələdə boşluq var idi. Sadəcə olaraq bəzi daşıyıcılar daha yaxşı xidmət göstərmək üçün məsrəflərini artırıb, yeni avtobuslar aldılar ki, onlarda kondisionerlər oldu. Bu, fərdi şəkildə qəbul olunmuş bir qərar idi. Qanunvericilikdə bu məsələ açıq-aşkar bildirilmirdi. Bakı Nəqliyyat Agentliyi yaradıldıqdan sonra isə bu nüans əsas məsələ kimi agentliyin qarşısında qoyuldu. Eyni zamanda sonrakı mərhələlərdə də sərnişinlərin çoxsaylı şikayətləri nəzərə alınaraq belə qərara gəlindi ki, Bakı Nəqliyyat Agentliyi bu məsələnin də həllini öz üzərinə götürsün. Məndə olan məlumata görə, artıq bu ildən etibarən sərnişindaşıma ilə məşğul olan şirkətlərin qarşısında lisenziya verilən zaman kondisionerlərin olması tələbi də birmənalı şəkildə qoyulur. Əgər kondisioner sistemi varsa, bu, lisenziyanın verilməsini sürətləndirmiş olur. Yoxdursa, lisenziya verilmir. Belə bir yanaşma artıq formalaşıb. Təəssüflər olsun ki, tələblər qoyulsa da bu problem hələ tam həllini tapmayıb. Səbəb də odur ki, havalandırma sistemi olmayan avtobuslara bunu sonradan qoymaq xeyli məsrəf tələb edir. Texniki cəhətdən bu, rahat bir proses kimi görünə bilər. Ancaq maddi baxımdan belə deyil. Məsələn Rusiyada istehsal edilmiş "sedan" tipli avtomobillərə sonradan kondisioner sisteminin quraşdırılması kifayət qədər baha başa gəlir. Avtobuslarda isə bu rəqəm daha böyükdür".

**Ekspert bildirib ki, yay aylarında avtobuslarda kondisionerin işləməsi mütləq şərtdir:** "Düşünürəm ki, keyfiyyətin artırılmasında maraqlı olan şirkətlər bunun məsrəflərindən çəkinməməlidirlər. Həm də onlar bu yolla potensial sərnişin axınını öz tərəflərinə çəkməyə müvəffəq olarlar. İnsanlar əgər bir istiqamətdə iki marşrut varsa, daha çox kondisionerli olan avtobusa üstünlük verirlər. Bir məqam da var ki, hazırda bəzi avtobuslarda kondisioner sistemi olsa da, yanacağa qənaət məqsədi ilə onlar tam qoşulmur. "BakuBus" avtobuslarında isə bu cür problemlər olmur. Digər şirkətlər də bu sistemi lazımı qaydada işə salmaqla həm də bir növ sərnişin qazanıb, gəlirlərini artırarlar".

**Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev isə məsələ ilə bağlı qəzetimizə aşağıdakıları bildirdi:**

"Bakı Nəqliyyat Agentliyinin avtobuslarla bağlı müəyyənləşdirdiyi əsas tələblərdən biri sərinləndirmə və havalandırma sisteminin olmasıdır. Lakin təəssüf ki, hələ də bu tələbin tam yerinə yetirilməsinə nail olunmayıb. Ona görə ki, bildiyiniz kimi avtobuslar daha əvvəldən Bakı şəhərinə gətirilib. Onlar da Bakı şəhərində sərnişindaşımaya tam yararlı nəqliyyat vasitələri olmayıblar. İndi isə həmin o nəqliyyat vasitələrinin yenilənməsi, daha müasir, şəhər infrastrukturuna uyğun avtobusların yenilənməsi istiqamətində işlər aparılır. Bunun üçün də utilizasiya proqramını təklif etmişik ki, bunun sayəsində avtobuslar yenilənsin. Eyni zamanda mövcud avtobusların texniki baxımından yenilənməsi istiqamətində də işlər aparılır. Təxminən 650-yə yaxın avtobus tam təmir olunaraq, istifadəyə verilib. Hazırda şəhərdə 2100 avtobus var, onlardan da 500 ədədində kondisioner var. Qalanlarında isə sərinləndirmə və havalandırma sistemi mövcud deyil".

❑ **Əli RAİS**

# Prezìdent olsalar da hobbìlərindən vaz keçmìrlər...

**Prezidentlər barədə bilinməyən yoxdur. Onların iş həyatının xaricində yaşadıqları hər zaman publikanın gözü qabağında olub. Amma bu mövzuda ən çox diqqət çəkən prezidentlərin hobbiləridir. Bəli, onlar da bizim kimi ətdən-sümükdən yaranıblar. Ancaq işləmirlər. İşləməklə yanaşı, özlərinə, öz həyatlarına da vaxt ayırırlar.**









## Müğənnilik, rəsm, idman... dünyanı idarə edən liderlərin bir-birindən ilginc məşğuliyyətləri

"Yeni Müsavat" bu dəfəki yazısında prezidentlərin bir-birindən maraqlı hobbilərini sizlərə təqdim edir.

### Ssri prezidentləri musiqi həvəskarı olub

Öncə keçmiş SSRİ məkanındakı ölkələrdən başlayaq. **Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov** bir neçə il öncə hökumətdə təmsil olunan məmurların nəvələri üçün təşkil edilən Yeni il şənliyində müəllifi olduğu mahnıları ifa edib. O həmçinin nəvələri ilə birgə Castin Timberleykin mahnısını oxuyub. Dövlət başçısı həm də gitarada ifa etmək qabiliyyətinə görə seçilir. Onun "İrəli, irəli, yalnız irəli, sevimli vətən Türkmənistan!" mahnısını eyni anda 4 166 insan səsləndirib.

**Qırğızıstan prezidenti Almazbek Atambayev**in də bu siyahıda xüsusi yeri var. Bu günə qədər Atambayev 5 mahnı yazıb. Onun ən məşhur mahnısı isə "Taleyin acığına" adlanırdı. Bu mahnı yerli musiqi siyahılarında və sosial şəbəkələrdə rekord həddə izlənmişdi.

**Rusiya prezidenti Vladimir Putin** də royalda ifa etməyi bacarır. Uşaq onkoloji xəstəliklərinin müalicəsi üçün təşkil edilmiş xeyriyyə gecəsində Putinin tamamilə gözlənilməz ifası hər kəsin yaddaşında dərin iz buraxdı. Onun bu yaxınlarda royalda ifa etdiyi mahnı da Azərbaycanda ciddi maraqla qarşılanmışdı.

**Qazaxıstan prezidenti Nursultan Nazarbayev** də zamanında rəngli mənzərələrə səbəb olub - təbii ki, bu cür musiqi qabiliyyətini nümayiş etdirdiyinə görə. Nazarbayev dombrədə ifaə etməyi və mahnı oxumağı bacarıb. Əvvəllər o, dombro ilə publika qarşısına daha tez-tez çıxardı, amma indi o, nadir hadisəyəyə çevrilib. Bundan başqa, o, dövlət himninin həmmüəlliflərindən sayılır və bir neçə mahnıya söz yazıb. Prezidentin müəllif mahnıları, eləcə də onun sevimli xalq mahnıları da xüsusi bir saytda yerləşdirilib.

### Amerika prezidentləri - mahnı oxumağı, çalmağı sevirlər

Amerika Birləşmiş Ştatının eks-prezidenti və eyni zamanda prezidentliyə namizədliyini irəli sürmüş Hilari Klintonun həyat yoldaşı Bill Klinton uşaqlıqdan musiqiçi olmaq istəyirdi. Hətta 1993-cü ildə öz qonaqlarını saksofondakı ifası ilə sevindirirdi. Həmin vaxt onun innaqurasiya mərasimi təşkil olunmuşdu.

**ABŞ-ın daha bir eks prezidenti Barak Obama** isə daha çox "ifaçılıq" qabiliyyətini nümayiş etdirib. O, bir neçə dəfə oxuduğu mahnılarla publikanın simpatiyasını qazanıb.

**ABŞ-ın 43-cü prezidenti Corc Buş** (kiçik) hər hansı musiqi alətində ifa etməsə də, hərbi orkestrə dirijorluq etməyi sevirdi. Bu işlə Rusiyanın mərhum prezidenti Boris Yeltsin də məşğul olurdu və bununla bağlı bir neçə dəfə fotokameranın yaddaşına da düşmüşdü.

Ukraynanın dördüncü prezidenti Viktor Yanukoviç gitarada ifa etməyi çox sevirdi. O, bir dəfə ölkə jurnalistlərini evinə qonaq dəvət edəndə onlar üçün gitarada mahnı ifa etmişdi.

**SSRİ-nin birinci və yeganə prezidenti olan Mixail Qorbaçov** Putin kimi royalda ifa etməyi bacarmasa da, çox gözəl mahnı oxumaq qabiliyyəti var. Hətta bu yaxınlarda o, mərhum həyat yoldaşı Raisa Maksimovnanın xatirəsinə həsr olunmuş bir disk də çıxarıb. SSRİ-nin eks-prezidenti həyat yoldaşının sevdiyi romansları Andrey Makareviçlə birgə hazırlayıb və diskə köçürüb.

**Ukraynanın sabiq prezidenti Viktor Yanukoviç**in hobbisi göyərçin saxlamaq olub. Lukaşenkonun ən çox sevdiyi məşğuliyyət isə xokkey oynamaqdır. Belarus prezidenti gənc yaşlarından bu idman növünə üstünlük verib. Amerika prezidenti Obamanın hobbisi pivə hazırlamaqdır. Seçkiqabağı görüşlərin birində öz istehsal etdiyi bir şüşə pivəni seçicisinə hədiyyə etməyini amerkalılar bu gün də təbəssümlə xatırlayır.

**ABŞ-ın ilk prezidenti olmuş Corc Vaşinqton**un gümüş qılınc və müşket kolleksiyası olub. Onun kolleksiyasının bir qismi varisləri tərəfindən auksionlarda satılsa da, bir hissəsi ABŞ Dövlət Muzeyində qorunur.

### Bunlar da rəsm həvəskarlarıdır

ABŞ-ın Azərbaycandakı səfirliyi Facebook səhifəsində yazır ki, Oval Ofisdə dörd ildən səkkiz ilə qədər işləmiş prezidentlərin istirahət etmək və bəlkə də sakitləşdirici bir hobbi ilə məşğul olmaq istəyi əsaslıdır. Keçmiş prezidentlərdən ən azı dördü öz bədii bacarıqlarını tədqiq etmək üçün prezidentlikdən sonrakı vaxtdan istifadə ediblər:

**Ulisses Qrant - 18-ci prezident** və vətəndaş müharibəsində iştirak etmiş fəxri general öz prezident həmkarlarına nisbətən rəssamlıq sənəti ilə məşğul olmağa daha əvvəl başlayıb.

**Dvayt Eyzenhauer** - öz prezidentliyindən əvvəl əsgər olaraq xidmət göstərən və Kolumbiya Universitetinin prezidenti vəzifəsini yerinə yetirən Eizenhauer, rəssamlıq sənətinə Qrant-dan daha sonra başlayıb və həyatı boyu ən azı 250 tanınan rəsm əsərlərinin müəllifi olub.

Cimmi Karter - rəsm əsərlərinin təbiət mənzərələri və naturalistik görüntüləri ilə ixtisaslaşmışdır. 2012-ci ildə keçirilən hərracda Cimmi Karterin orijinal rəsmi $250,000 dollara satılıb.

Corc Buş - O həqiqətən itlərin rəsmlərini çəkməyi xoşlayır. Yəqin ki, onun ən məşhur rəsm işi ailə itinin portretidir.

Rusiya mətbuatının isə bu mövzuda olduqca maraqlı araşdırmaları var. Başlayaq **Rusiyanın birinci prezidenti Boris Yeltsin**dən.

Yeltsin cavanlığında voleybol oynamağı sevib, amma illər sonra bu xobbi öz yerini tennisə verib. Bundan başqa, onun məşğuliyyətləri arasında ədəbiyyat da olub. O, kitab kolleksiyası toplayıb, Pelevinin, Sorokinin, Ulitskoyun yaradıcılığı ilə maraqlanıb. Vəzifədən gedəndən sonra olduqca bol vaxtı qaldığı üçün bunu filmlərə baxmağa sərf edib.

ABŞ prezidenti Barak Obama isə məktəb illərində basketbol oynayıb. 1979-cu ildə isə məktəb komandasının tərkibində ştat çempionatının qalibi olub. Hazırda isə qolfu basketbola tərcih edir. Bundan başqa, eks prezident caz musiqisini sevir və kitab yazmaqla məşğuldur.

### Prezidentlər arasında marka kolleksioneri də var, aşpaz da, mahnı sözü yazan da...

Fransanın eks-prezidenti Nikola Sarkozi marka kolleksiyası yığıb və Yelisey Sarayının poçt kolleksiyası klubuna sponsorluq edib. Bundan başqa, o, idmanla da məşğul olub: velosiped sürüb, futbol oynayıb.

Almaniya kansleri Angela Merkel isə yemək bişirməyi və bağda çalışmağı sevir. O, klassik musiqi heyranıdır və mütaliəni sevir. Bundan başqa, o, qaynar futbol azarkeşidir.

Böyük Britaniyanın eks baş naziri Devid Kameron da yemək bişirməyi, tennis oynamağı, at minməyi, ovçuluq etməyi və futbol oynamağı sevir. Hətta o, baş nazir olana qədər işə də velosipedlə gedib-gəlirdi.

Silvio Berluskonini də bu siyahıda unutmayaq. İtaliyanın keçmiş baş naziri istefasından sonra vaxtının böyük qismini musiqiyə həsr edib. O, musiqi diski çıxarıb. Albomlarından biri "Həqiqi məhəbbət" adlanırdı. Həmin albomun içində siyasətə dair heç nə yoxdur, ancaq məhəbbət mövzusudur. Demək lazımdır ki, Berluskoni mahnı sözlərini müəllifidir, kompozisiya isə başqasına məxsusdur. Onun mahnılarını professional müğənni Mariano Apiçelle ifa edir. Eks baş nazir çoxdan bəri musiqi ilə məşğuldur, fortepianoda, gitarada və kontrabvasda ifa edir. Hətta cavanlığında mahnı oxuyaraq pul da qazanıb.

### Diktatorların hobbiləri qıcıq yaradır

**Venesuellanın eks prezidenti Uqo Çaves** də idmanı sevirmiş. Öz müsahibələrində o, bir neçə dəfə etiraf edib ki, cavanlığında orduda qulluq etməyə ona görə gedib ki, beysbolla məşğul olmağa imkan qazansın. Çaves professional idmançı karyerası ilə məşğul olmağı arzulayıb. Amma həmin vaxt anası onun rahib olmasını istəyib. Kapitalizmin qəti əleyhdarı olan Uqo Çaves iddia edirdi ki, beysbol və softbolu Olimpiya oyunları proqramına salmaq üçün Amerika ilə dostluq etməyə də hazırdır. Bu idman qabiliyyətləri ilə yanaşı, eks prezident öz ölkəsində yaxşı müğənni kimi də tanınırdı.

İndi də diktatorların xobbilərinə nəzər yetirək. **Fidel Kastro** da beysbol həvəskarı olub. O, daha çox idmanla məşğul olub. Amma onun bu idman növünə olan marağı xalqda da ciddi maraq yaradıb. Amma bununla yanaşı, komandante professional idmanın əleyhinə çıxış edib və deyib ki, "professionalizm kapitalizm deməkdir". Onun iddiasına görə, idmanı sevən hər kəs onunla həvəskar şəkildə məşğul olmalıdır.

**Şimali Koreya lideri olan Kim Çen İn də güclü formada basketbolla məşğul olub və dəfələrlə öz ölkəsinə eks amerikan basketbolçusu Dennis Rodmanı dəvət edib. Sonuncu da belə dəvətlərə heç vaxt "yox" deməmdiyi üçün Koreyanı da ziyarət edib. Amma ölkə başçısının bu idman növünə olan marağı sıravi koreyalılara xüsusi olaraq təsir etməyib. Hətta bu ölkənin diktatura rejimində idarə olunduğunu nəzərə alanda bu cür xobbilər xalqda daha çox qıcıq yaradır deyə bilərik.**

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
Son səhifə
N 165 (6779) 9 avqust 2017

# Tez-tez ac qalırsınızsa...

Alimlər ayrı-ayrı araşdırmalar çərçivəsində insan həyatını uzatmaqla bağlı nəticələrə gəlib. Bunlar "ömrü uzatmağın 10 yolu" adı altında toplanıb. Sözügedən yollardan biri insanın tez-tez ac qalmasıdır. Dünyanın ən uzun yaşayan insanların yaşadığı Okinavada xalq tam doymadan yeməkdən əlini çəkir.

İkinci yol dil öyrənməkdir. Dil öyrənmək daha çox insanla ünsiyyət və müsbət enerji qazanmaq anlamına gəlir. Dağlarda yaşamaq, genetik müalicə, varlanmaq, bir inanca sahib olmaq, çox işləyib



stressə girmək, dərmandan düzgün istifadə, orqan transplantasiyası, dünyada yaxşı işlər görmək də yaxşı yaşamağın qaydaları sırasındadır.

# Öskürdü və... bir daha yeriyə bilmədi



**42 yaşındakı qadın öskürəndə beyin qanaması keçirib, indi nə danışır, nə də yeriyə bilir. "Daily Mail"də yayımlanan xəbərə görə, Caz Dickinson sağlam və fit bir qadın olduğu halda bir öskürək krizi həyatını cəhənnəmə çevirib. Öskürərkən hamamda özündən gedən qadın xəstəxanaya aparılıb. 3 uşaq anası olan Caza 4 səviyyəli beyin qanaması diaqnozu qoyulub.**

Ölümcül ola bilən bu beyin qanaması növü beynin səthində meydana gəlir. Cərrahiyyə əməliyyatından sonra oyanıb, ailəsi ilə normal bir şəkildə danışan Cazla bağlı hər kəs optimist düşündüyü halda, bir neçə gün sonra onun yenidən halı pisləşib və bədəninin sol tərəfini tərpədə, eləcə də danışa bilməyib. Həkimlər onun iflic keçirdiyini deyib və qadını reanimasiyaya aparıblar. Edilən bütün müdaxilələrə baxmayaraq, həkimlər boynundan aşağısı iflic olan Cazın bir daha yeriyə bilməyəcəyini vurğulayıblar.

# Kafedə müştəri kişi olduğu üçün 18 faiz artıq ödəyir

**Melburn şəhərindəki "Handsome Her" adlı kafedə kişi müştərilər üçün qiymət qaldırılıb. Bunda məqsəd qadın əməyinin qeyri-bərabər qiymətləndirilməsini kompensasiya etmək olub. Sözügedən kafeyə gedən kişilər 18 faiz daha artıq ödəmək zorundadırlar. Bu Avstraliyada qadınlarla kişilərin məvacibi arasındakı fərqə bərabərdir. Ölkənin dövlət statistika bürosunun açıqlamasına görə, 2015-ci ildə kişilər qadınlardan 17.25 faiz artıq maaş alıblar.**

Kafe sahibi Aleks Obrayenin sözlərinə görə, o, ölkədəki qeyri-bərabər məvacib durumuna diqqət çəkmək istəyib. "Mənim xoşuma gəlir ki, bu kafeyə girən kişilər bir daha bu qeyri-bərabərlik haqqında düşünmək zorunda qalırlar".

Obrayen deyib ki, ziyarətçilərin reaksiyası pozitiv olub. 18 faiz artımdan əldə olunan gəlir xeyriyyə qurumlarına yönəldilir. Bu isə Avstraliyanın qədim sakinlərinə və onların uşaqlarına yardım edib. BMT-in 2015-ci ildə dərc edilən hesabatında da qeyd olunub ki, ümumən qadınların orta aylıq məvacibi kişilərinkindən 23 faiz geri qalır. Və bu qeyri-bərabər durum nəinki inkişaf etməkdə olan, eyni zamanda inkişaf etmiş ölkələrdə də eynidir.




# Axtarış elanındakı fotosunu bəyənmədi, polisə müraciət etdi

**Böyük Britaniyada polis tərəfindən axtarışda olan şəxs uğursuz fotosuna görə şikayət edib. Bu haqda lenta.ru saytı UPI-yə istinadən xəbər verib. Cənubi Uelsin departament polisi xəbər yayıb ki, 35 yaşlı Ueyn Esmond silahlı basqında ittiham olunur. Onlar bu şəxsin fotosunu da polis idarəsindən Facebook səhifəsində yayıblar. Bu foto və altındakı axtarış mətninə şərh yazanlardan biri də Esmond olub. O, belə yazıb: "Bu, heç də mənim yaxşı fotom deyil. Onu ordan silsəniz, çox minnətdar olaram. Mən əksi sübut edilənə qədər cinayətkar sayılmıram və bunun bu cür təqdim olunmasından da narazıyam".**

Esmond öz vəkili ilə məsləhətləşəndən sonra polisə təslim olub. Polis departamentində isə onun bu xahişini yerinə yetirərək, sözügedən fotosunu siliblər. Amma artıq gec idi. Çünki həmin vaxta qədər şəkili yerli KİV-lər çap etmişdilər.

2016-cı ildə isə Avstraliyada türmədən qaçmış Emi Şarp adlı qadın axtarış elanının altındakı fotosunun silinməsini tələb edib. Amma daha sonra onu yenidən həbs ediblər.

# Qoroskop




**QOÇ** - Saat 15-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı müddətdə isə ehtiyatlı olun. Axşam saatlarını evdə keçirməyə çalışın.

**BUĞA** - Qarşınızda duran bu mistik təqvimdə yalnız işgüzarlığınızı artırmalısınız. Yeni işlərə başlamaq haqqında sövdələşmələr aparın. Çünki bu addım böyük perspektivlərdən xəbər verir.

**ƏKİZLƏR** - Müəmmalı bir tarixdir. Özünüzlə bağlı situasiyaları nəzarətdə saxlaya bilməyəcəksiniz. Yaxşı olar ki, etibar etdiyiniz adamların rəyi ilə hesablaşasınız. Sizə kömək göstərəcəklər.

**XƏRÇƏNG** - Daxili gərginliyiniz xeyli səngiyəcək. Bu isə başınıza yeni ideya və perspektivli fikirlərin gəlməsinə səbəb olacaq. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.

**ŞİR** - Həqiqətə yaxın olan arzularla yaşayın. Paxıl və bədxah adamların müdaxilələrinə fikir verməyin. Bürcünüzün "hakimiyyətdə" olduğu bu gözəl gündə enerjinizi boş şeylərə görə itirməyin.

**QIZ** - Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Bu gün ulduzlar məclislərdə iştirakınızdan da xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Səhhətinizə fikir verin.

**TƏRƏZİ** - Sürprizlərlə dolu bir gün yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz gözlənilir.

**ƏQRƏB** - Maraqlı yeniliklərə hazır olun. Bütün göstəricilər güclü olacağınızdan, təxminən on günün işini görəcəyinizdən xəbər verir. Amma bu proseslər daha çox nahardan sonraya təsadüf edəcək.

**OXATAN** - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin.

**OĞLAQ** - Avqustun bu qəribə günü hamıdan çox sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.

**SUTÖKƏN** - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.

**BALIQLAR** - Proseslərin inkişafı mənfi istiqamətdə cərəyan edə bilər. Bu səbəbdən bəzi məsələlərdə ehtiyatlı olmalısınız. Günortadan sonra nüfuzlu və etibarlı adamlarla görüşməyiniz vacibdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Elə bilirdi ki, qripdir, amma ölüm onu gözləyirmiş

**24 yaşlı müəllimə April Heatin başına gələnlər tibb dünyası üçün görünməmiş hadisə olub. "Daily Mail"in xəbərinə görə, şagirdlərindən qrip virusu keçdiyini düşünən müəllimə həkimə müraciət edəndə ona narahatlıq və qulaq infeksiyası diaqnozu qoyulub.**



Amma qəbul etdiyi dərmanlara baxmayaraq baş hərlənməsi və yorğunluğu davam edib. Başqa bir həkimə gedən gənc müəllimməyə anemiya xəstəliyinə yoluxduğu, qan miqdarının təhlükəli dərəcəyə qədər az olduğu müəyyənləşib. Daha sonrakı müayinələr nəticəsində müəllimənin qarnında xərçəngli olmayan bir şiş aşkarlanıb, bu şişin partladığı və yavaş-yavaş qanayaraq onu ölümə apardığı üzə çıxıb. Qan köçürmələri və əməliyyatlardan sonra, hazırda yaxşılaşmaq üzrə olan April Heatin tezliklə sağlamlığına qovuşacağı bildirilir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Zahid SƏFƏROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.100